Günəş Şərqdən doğur!
№ 138 (5419), 2021-ci il
Qiymət 40 qəpik
ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az
6 avqust 2021-ci il (cümə)




## Yaxın bir ay ərzində karantin sərtləşməyəcək

"Nə qədər çox vaksinasiya olunsaq, o qədər də təhlükəsizlikdə olarıq"

(səh.8)



## Makron İlham Əliyevə zəng edib

Ermənistanla dövlət sərhədindəki vəziyyət müzakirə olunub

**Dünən Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Söhbət zamanı dövlət başçıları 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıblar.

(səh.2)

## Türkiyənin Milli Təhlükəsizlik Şurası çağırış edib



"Ermənistan təxribatlardan əl çəkərək bölgədə yaradılan sülh və rifah fürsətini dəyərləndirməlidir"

(səh.2)

# Sülh sazişi düyünə düşüb

## Birgə bəyannamədən 10 ay vaxt keçir, Rusiya səssizdir



(səh.3)



## Millət vəkili Operativ Qərargahı inadından dönməyə çağırdı

## İctimai nəqliyyat bütün günü işləməlidir



(səh.8)

- **Eldəniz Səlimova deputat maaşı veriləcək**
  Onun toxunulmazlığı ləğv edilib, amma mandatı alınmayıb (səh.2)
- **Türkiyədəki yanğınların sirri bəlli olur**
  Ərdoğan hökuməti üçün "borc bataqlığı" yaradılır (səh.3)
- **Şizofreniya xəstəsinə 7 aydır pensiya kəsilmir**
  Razi Nurullayev: "Haqqını ala bilməyən yüzlərlə xəstə var və onlarla maraqlananlar yoxdur" (səh.7)
- **Böyük hədəflərimizdən yayınmayaq**
  Hər kəs yanğınlara qarşı diqqətli olmalıdır (səh.11)

# Makron İlham Əliyevə zəng edib

### Ermənistanla dövlət sərhədindəki vəziyyət müzakirə olunub



**Dünən Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib.**

Söhbət zamanı dövlət başçıları 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatdan sonrakı dövrdə regional məsələlər və Bəyanatın müddəalarının həyata keçirilməsi, Ermənistan-Azərbaycan dövlət sərhədindəki vəziyyət və postmünaqişə dövründə regionda sabitlik və təhlükəsizliyin möhkəmləndirilməsinə dair ətraflı fikir mübadiləsi apardılar.

Dövlət başçıları söhbət əsnasında Azərbaycan-Fransa ikitərəfli əlaqələrinin müxtəlif sahələrinə aid məsələləri də müzakirə ediblər.

*Xatırladaq ki, iyulun 3-də Rusiya və Fransa liderləri Vladimir Putinlə Emmanuel Makron arasında telefon danışığı baş tutub.*

Kremlin mətbuat xidmətinin məlumatına görə, Fransa tərəfinin təşəbbüsü ilə gerçəkləşən telefon söhbətində beynəlxalq məsələlərdə Rusiya ilə Fransanın əməkdaşlığı ətraflı müzakirə edilib.

Söhbət əsnasında Avropada sabitlik və təhlükəsizlik mövzusuna xüsusi diqqət yetirilib. Prezidentlər Ukraynanın cənub-şərqindəki vəziyyəti, Liviya münaqişəsini və Qarabağ ətrafında yaranmış vəziyyəti müzakirə ediblər. Rusiya-Aİ əlaqələrinin durumu və perspektivləri barədə fikir mübadiləsi aparılıb.

RF prezidenti Fransa dövlət başçısına Qarabağla bağlı 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci tarixli üçtərəfli razılaşmaların həyata keçirilməsinin gedişi barədə məlumat verib. Vurğulanıb ki, Rusiya sülhməramlılarının mövcudluğu sayəsində bölgədə vəziyyət sabit olaraq qalır. Normal təsərrüfat fəaliyyətinin qurulması, iqtisadi və nəqliyyat əlaqələrinin açılması üçün ilkin şərtlər yaradılıb.

Rusiya lideri bölgənin hərbi əməliyyatlardan zərər çəkən əhalisinin humanitar problemlərinin həllində avropalı tərəfdaşların və xüsusilə də Fransanın daha yaxından iştirakının vacibliyinə diqqət çəkib. ATƏT-in Minsk Qrupu daxil olmaqla, Qarabağ məsələsinin tənzimlənməsinin fərqli aspektləri üzrə əlaqələndirməyə qarşılıqlı hazırlıq ifadə edilib.

## KTMT-də müşahidəçi statusunun verilməsi...

### Rusiya XİN: Azərbaycan tərəfindən bununla bağlı müraciət daxil olmayıb



**Azərbaycan tərəfindən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında (KTMT) müşahidəçi statusunun verilməsi ilə bağlı müraciət daxil olmayıb.**

APA-nın Moskva müxbirinin verdiyi məlumata görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini Aleksandr Bikantov dünən keçirdiyi mətbuat konfransında bildirib.

Rusiya XİN rəsmisi KTMT-yə üzv ölkələrin təşkilatın informasiya sahəsində açıqlığın, eləcə də xarici əlaqələrin genişlənməsi istiqaməti götürdüyünü söyləyib: "Qəbul edilmiş sənədlər KTMT-nin fəaliyyətinə müxtəlif maraqlı ölkələrin tərəfdaş və ya müşahidəçi qismində cəlb olunmasına imkan verir. Bu cür qərarlar məlum olduğu kimi konsensus əsasında qəbul olunur. Azərbaycan tərəfindən bu cür müraciət hələ ki, edilməyib. Ümid edirik ki, digər ölkələr və beynəlxalq strukturlarla konstruktiv əməkdaşlığın möhkəmləndirilməsi təşkilata inamın artmasına və təşkilatın cavabdeh olduğu məkanın təhlükəsizliyinin möhkəmləndirilməsinə yardım edəcək".



## Türkiyənin Milli Təhlükəsizlik Şurası çağırış edib

### "Ermənistan təxribatlardan əl çəkərək bölgədə yaradılan sülh və rifah fürsətini dəyərləndirməlidir"

**"Cənubi Qafqazda uzun müddətdən sonra yaradılan sülh və rifahı qorumaq üçün Ermənistan öz hücumlarından, təxribatlarından və həqarətlərindən əl çəkərək bu fürsəti dəyərləndirməlidir".**

APA-nın yerli bürosunun xəbərinə görə, bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə keçirilən Milli Təhlükəsizlik Şurasının (MTŞ) iclasından sonra verilən bəyanatda bu barədə bildirilib. Bəyanatda Ermənistan rəhbərliyinə qəbul etdiyi öhdəliklərinə sadiq qalaraq bölgə ölkələri ilə əməkdaşlıq üçün çağırış edilib.

*Qeyd edək ki, MTŞ-nin iclası 3,5 saatadək davam edib.*

## İranın yeni prezidenti and içib

**İranın yeni prezidenti İbrahim Rəisi parlamentdə and içib.**

Trend-in məlumatına görə, yerli vaxtla 17:00-da başlanan andiçmə mərasiminə 73 ölkədən 115 rəsmi şəxs, o cümlədən 10 ölkə prezidenti, 20 parlament sədri, 11 xarici işlər naziri qatılıb.

Azərbaycan parlamentinin sədri Sahibə Qafarovanın başçılıq etdiyi nümayəndə heyəti də İran prezidentinin inauqurasiya mərasimində iştirak edib.

*Qeyd edək ki, iyunun 18-də İranda 13-cü prezident seçkiləri keçirilib. İ.Rəisi 17,9 milyon (61,9%) səslə prezident seçkilərində qalib elan olunub.*

# Eldəniz Səlimova deputat maaşı veriləcək



### Onun toxunulmazlığı ləğv edilib, amma mandatı alınmayıb

**"Toxunulmazlığı ləğv edilən Milli Məclisin deputatı Eldəniz Səlimova deputat maaşı veriləcək".**

Bunu "Report"un sorğusuna cavab olaraq Milli Məclisin İntizam komissiyasının katibi Nurlan Həsənov deyib.

Onun sözlərinə görə, E.Səlimovun toxunulmazlığı ləğv edilib, amma mandatı alınmayıb: "Buna görə də ona deputat maaşı veriləcək. Əgər məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olarsa, onun deputat səlahiyyətlərinə xitam veriləcək və Eldəniz Səlimova maaş verilməyəcək".

İntizam komissiyanın katibi onu da bildirib ki, E.Səlimova deputatlıq səlahiyyətləri ilə bağlı hər hansı məhdudiyyət tətbiq olunmayıb: "Sadəcə onun toxunulmazlığı əlindən alınıb".

*Qeyd edək ki, "Milli Məclis deputatının statusu haqqında" qanunun 21-ci maddəsində qeyd edilib ki, Milli Məclisin sədri 2 475 manat miqdarında aylıq vəzifə maaşı alır. Milli Məclisin deputatı isə Milli Məclis sədrinin aylıq vəzifə maaşının 70 faizi miqdarında (1 732,5 manat) aylıq vəzifə maaşı alır.*

## Koronavirusa yoluxanların sayı 1000-i keçdi

### 219 nəfər müalicə olunaraq sağalıb, 4 nəfər ölüb

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 1196 yeni yoluxma faktı qeydə alınıb, 219 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, son sutka ərzində koronavirus infeksiyasından 4 nəfər ölüb.

İndiyədək ölkədə ümumilikdə 348 074 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 333 913 nəfər müalicə olunaraq sağalıb, 5043 nəfər vəfat edib. Aktiv xəstə sayı 9118 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 13 046, bu günə qədər isə ümumilikdə 4 083 746 test icra olunub.



## "NATO-nun yerdən dəstəyinə hələ ehtiyac yoxdur"

### Mövlud Çavuşoğlu: "Daha böyük bir şey olarsa, Allah qorusun, çəkinməyəcəyik"

**"Fərqli ölkələrdən təkliflər var. Dünən dedik ki, Azərbaycandan bir təyyarə və 40 yanğınsöndürən avtomobil 150 nəfərlə yola düşəcək. Təyyarə 10 şəxsi heyətlə Dalaman şəhərinə eniş edib. Yanğınsöndürən avtomobillər də Gürcüstandan keçir. Onlar Türkiyəyə gəlirlər".**

"Report" xəbər verir ki, bu barədə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib.

Onun sözlərinə görə, meşə yanğınları ilə bağlı Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov ilə telefon danışığı olub.

"Qardaşımla hər gün telefonla danışırıq. NATO-nun baş katibi Yens Stoltenberqlə də telefon danışığımız baş tutub. NATO-nun qurudan yardımla bağlı bəzi missiyaları var, lakin Avropada və ya müttəfiq ölkələrdə də güclü yanğınlar var. Şimali Makedoniya istisna olmaqla, heç kim bu mexanizmdən istifadə etməyib. Dostlarımızın qiymətləndirməsinə görə, NATO -nun yerdən dəstəyinə ehtiyac olmadığını düşünürük. Daha böyük bir şey olarsa, Allah qorusun, çəkinməyəcəyik. Çünki, biz NATO üzvüyük".

# Sülh sazişi düyünə düşüb

## Birgə bəyannamədən 10 ay vaxt keçir, Rusiya səssizdir



### Ekspertlərin iddiasına görə, Ermənistan yeni şərtlərlə masaya qayıtmağa çalışır

**Rusiya Xarici İşlər Nazirliyi vaxtaşırı üçtərəfli razılaşmaların yerinə yetirilməsinə çağırışlar edir. Ancaq 10 noyabr birgə bəyannaməsindən on ay keçməsinə baxmayaraq, Rusiya konkret addımlar atmır.**

Daha doğrusu, bu istiqamətdə çalışmaların başlanması üçün İrəvana təsir etmir. Moskvanın "üçtərəfli bəyannamələrə əməl olunmalıdır" tipli açıqlamaları sadəcə manipulyasiyadır və məqsəd mövcud situasiyanı qorumaqdan ibarətdir. Bu fonda Ermənistan tərəfindən sərhəddə gərginliyin davam etdirilməsi də razılaşmaların həllini gecikdirməkdədir.

Cənubi Qafqaz Sülh və Münaqişə İnstitutunun rəhbəri Məhəmməd Əsədullazadə bildirib ki, Ermənistan Baş naziri Nikol Paşinyanın məqsədi vaxt qazanmaq və Qərbin bölgədə iştirakına nail olmaqla Qarabağın "status" məsələsini yenidən gündəmə daşımaqdır. Ekspertin sözlərinə görə, bu da regional əməkdaşlığın başlamasını sabotaj etməkdir: "Rusiya Ermənistana üçtərəfli razılaşmalarla bağlı təzyiq etmədiyi üçün Paşinyan "müstəqil" hərəkət edir. Halbuki, Rusiyanın əlində kifayət qədər təzyiq rıçaqları var ki, Paşinyan mümkün razılaşmalara getsin. Müharibədən sonra Azərbaycan, Rusiya və Ermənistan baş nazirlərinin müavinlərinin birgə iştirakı ilə üçtərəfli komissiya təşkil olundu. Mart ayında tərəflər konkret təkliflərlə işə başlamalı idilər. Göründüyü kimi birgə komissiya öz işini dayandırıb. Demək olar ki, Ermənistan mövcud vəziyyəti müharibə vəziyyətinə gətirib çıxarıb. Halbuki, 10 noyabr birgə Bəyannaməsi barışığa və əməkdaşlığın əsasını qoyan bir sənəddir".

Analitikin fikrincə, Ermənistan yeni şərtlərlə masaya qayıtmağa çalışır: "Ermənistan 10 noyabr və 11 yanvar razılaşmalarını o halda yerinə yetirməyə hazır olduğunu qeyd edir ki, Azərbaycan öz sərhədlərindən ordunu geri çəksin və Qarabağın "status"u ilə bağlı danışıqlara başlansın. Bu isə Ermənistanın öz imzasından imtina etməsi anlamına gəlir. Təbii ki, Azərbaycan Ermənistanın heç bir şərtini qəbul etməyəcək. Paşinyanın imza atdığı sənədə əməl etmək istəməməsinin arxasında isə Fransa durur. Lakin gec-tez rəsmi Bakı istədiyini alacaq. Paşinyanı şərtlərimizə əməl etməyə məcbur qoyacağıq".

**İsmayıl Qocayev**



## Rusiya öz hərbçilərini Azərbaycan-Ermənistan sərhədinə yerləşdirə bilməz

### Rusiya XİN ölkəsinin mövqeyini ortaya qoyub

**Rusiya müvafiq beynəlxalq hüquq qaydalarının olmaması və tərəflərin etimad çatışmazlığı səbəbindən öz sərhədçilərini Azərbaycan-Ermənistan sərhədinə yerləşdirə bilməz.**

Sputnik Azərbaycan bildirir ki, bu barədə cümə axşamı, avqustun 5-də Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və mətbuat departamentinin direktor müavini Aleksandr Bikantov ənənəvi brifinqdə deyib.

Bundan öncə Ermənistanın baş nazir vəzifəsini icra edərkən Nikol Paşinyan Rusiya sərhədçilərinin dayaq məntəqələrinin Azərbaycanla sərhəd boyu yerləşdirilməsini təklif etmişdi.

"Sərhədçilərin sərhəd boyu yerləşdirilməsində əsas problem bunun beynəlxalq hüquqda təsbit olunmaması və üstəlik, tərəflərin yetəri qədər bir-birinə qarşılıqlı etimad göstərməməsidir", - Bikantov deyib.

Onun sözlərinə görə, sərhəddə dayanıqlı deeskalasiyaya ancaq Ermənistanla Azərbaycan arasında sonrakı demarkasiya şərti ilə dərhal delimitasiya işlərinə başlamaq yoluyla nail olmaq mümkündür.

## "Belə olmur..."

### Sərdar Cəlaloğlu: "Hamı evində oturub cəmiyyəti düzəltmək istəyir"



**"Kütlə yoxdursa, lider də yoxdur. Ona görə də biz lider yox, xalq axtarışında olmalıyıq".**

"Şərq" xəbər verir ki, bu sözləri ADP sədri Sərdar Cəlaloğlu "Bumeranq TV"-nin efirində deyib.

"Koroğlunu qəhrəman edən özü yox, xalq idi. İnsanlar olmasa, o, Çənlibelə getməyə qorxurdu. Babək niyə məğlub oldu? Çünki Bəzz qalasını qoyub, bir qadınla getdi. Bizim siyasi səhnədəki nümayəndələrimiz qonşu Gürcüstandakılardan xeyli irəlidədirlər, fəaldırlar. Amma xalq küçəyə çıxmır. Mahatma Qandi deyirdi ki, xalq həbsxanaları doldurmağa hazır deyilsə, küçələri doldura bilməz. Hamı evində oturub cəmiyyəti düzəltmək istəyir. Belə olmur".

**Kənan**

## Türkiyədə 180 meşə yanğınının qarşısı alınıb

**Türkiyədə 9 gün ərzində 38 vilayətdə 180 meşə yanğınının qarşısı alınıb.**

Trend-in məlumatına görə, bunu ölkənin kənd və meşə təsərrüfatı naziri Bəkir Pakdemirli öz "Twitter" səhifəsində yazıb.

O bildirib ki, hazırda 5 vilayətdə 12 meşə yanğını davam edir.

Son məlumatlara əsasən, Antalyada 2, Aydında 1, Dənizlidə 1, İspartada 1 və Muğlada 7 nöqtədə yanğınla mübarizə aparılır.

# Türkiyədəki yanğınların sirri bəlli olur

## Ərdoğan hökuməti üçün "borc bataqlığı" yaradılır





Türkiyədə yanğınların davam etməsi fonunda artıq ayrı-ayrı dünya ölkələrində analoji hallar yaşanmaqdadır. Baş verənlərlə bağlı müxtəlif iddialar səsləndirilir. Versiyalar, ehtimallar fərqlidir. Amma bir məsələ aydındır: belə "səhnə" "rejissorsuz", "senaristsiz" mümkün deyil. Odur ki, siyasi şərhçi Asif Nərimanlı ilə "kulis"i müzakirə etdik:

**- Artıq beynəlxalq gündəmi zəbt edən yanğın hadisələri barədə sizin fikirləriniz nədir?**

- Bizim dediklərimiz sadəcə ehtimallardır. Rusiyada, Yunanıstanda da yanğınların olması bunun qlobal miqyaslı olduğunu göstərir.

**- Bəs məqsəd nədir?**

- Bildiyiniz kimi, pandemiya da qlobal layihə idi. Bu yolla qlobalizmin, gedişgəlişin qarşısı alındı. İnsanlar evlərindən çölə çıxmadılar. Vaksinasiya kütləvilşdikcə yenidən əvvəlki vəziyyətə qayıdırıq. Yanğınların da qlobal layihə olması və milli hökumətlərə qarşı yönəlməsi istisna deyil. Əsas hədəflərdən biri də turizmin inkişafının qarşısını almaqdır. İkinci bir tərəfdən, yanan yerlərin beynəlxalq şirkətlərin nəzarətinə keçməsi və hökumətlər üçün borc "bataqlığının" yaradılması da versiyalardandır.

**- Qardaş ölkədəki yanğınların mövcud iqtidar əleyhinə olduğunu da deyirlər...**

- ABŞ Prezidenti Co Baydenin seçkilər ərəfəsindəki açıqlamaları, Ərdoğanla görüşdə ortaq məxrəcə gələ bilməmələri bu ehtimala əsas verir. Ümumiyyətlə, ABŞ-da demokratlar milli hökumətlərlə işləməyi sevmirlər. Hədəf Ankaranı yenidən Vaşinqtonun "çətiri altına" salmaqdır.

**- Elə isə niyə terrorun başqa növlərindən istifadə edilmir?**

- Türkiyənin terrora qarşı uğurlu mübarizəsi göz qabağındadır. Silahlı terrorun qarşısı dəfələrlə alınıb. Yanğınlar isə təxribatçılar üçün ən asan və rahat yoldur. Xüsusilə turizm bölgələrinin yandırılması iqtisadiyyatı zəifləməyə hesablanıb.

**- Bu, Ərdoğan hakimiyyəti üçün nə qədər təhlükəlidir?**

- Hökumət nə qədər sosialyönümlü addımlar atsa da, daxildə narazılıq yaranacaq. Yanğınlardan əvvəl müxalifətin tələb etdiyi erkən seçkilər məsələsi yenidən gündəmə gələ bilər. Bu isə AKP üçün çox təhlükəlidir. Ciddi səs itkiləri ola bilər. Nəzərə almaq lazımdır ki, AKP-nin hakimiyyətini təmin edən əsas məqam iqtisadiyyatla bağlıdır. Və son illərdə Türkiyənin iqtisadiyyatı zəifləməkdədir. Onu da deyim ki, hətta erkən seçkilər keçirilməsə belə, 2023-cü ildə AKP hakimiyyəti üçün təhlükə yenə qalacaq.

**- Prezident Ərdoğanın insanlara çay paylamasındakı mesaj nə idi?**

- Bu, qədim ənənədir. Dövlət başçısı demək istəyirdi ki, səbrli olun, hər şeyi həll edəcəm. Bu, xalqı sakitləşdirməyə hesablanmışdı.

**Kənan Novruzov**

# Jurnalistlər üçün keçirilən təlim proqramı başa çatıb



**Azərbaycanın Medianın İnkişaf Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə keçirilən "Jurnalistlərin münaqişə ərazilərində davranışları: Təhlükəsizlik və mühafizə qaydaları" mövzusunda təlim proqramı başa çatıb.**

Bağlanış mərasimində çıxış edən Medianın İnkişaf Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov təlimlərin hazırkı şəraitdə böyük praktik əhəmiyyət daşıdığını bildirib. O, bundan sonra da bu məzmunda keçiriləcək təlimlərə Medianın İnkişafı Agentliyinin dəstək verəcəyini vurğulayıb.

Qeyd edək ki, proqram çərçivəsində "Əl-Cəzirə" Media Şəbəkəsinin heyəti tərəfindən Azərbaycan Media nümayəndələri üçün "Jurnalistlər üçün Risk Təhlili və Əməliyyat Planlaşdırılması", "Xəbər toplamaqda riskin qiymətləndirilməsi", "Ballistik təhlükə", Şəxsi təhlükəsizlik", "Zərərçəkənlərin qiymətləndirilməsi", "Nümayiş və İctimai Qarışıqlıq", "Minalar və əldə hazırlanmış partlayıcı qurğular haqqında məlumat", "Yara və qanaxmanın idarə olunması", "Səyahət Təhlükəsizliyi", "Hava Hücumu və dron haqqında məlumat", "Bədəndə yaranmış qırıq hallarının idarə olunması", "Yanğının idarə olunması", "Qaçırılma və Xüsusi risklər", "Praktiki və Təlim Reviziyası", "Planlaşdırma və Risk qiymətləndirmə Testi", "Yekun Praktiki Ssenari test" mövzularında təlimlər keçirilib. Təlim zamanı real praktik misallardan istifadə edilməklə, iştirakçılara müvafiq mövzularla bağlı məlumatlar verilib.



*Təlim proqramının sonunda müxtəlif media subyektlərindən olan 19 nümayəndəyə sertifikatlar təqdim edilib.*

# Dənizdən-dənizə plan

## "Bu, kommunikasiya qovşaqlarının hərəkət açarı oldu"



"1780-ci ildən bu yana regionun və aparıcı Qərb dövlətlərinin yardımı ilə inkişaf etdirilən erməni coğrafiyasını üç dənizə qədər böyütmək planı təkcə Türkiyə və Azərbaycana qarşı deyil, eləcə də Aralıq, Qara və Xəzər dənizləri arasında yerləşən bütün xalqlara bəlalar gətirmişdi. İndi çətin ki, Allahın erməniləre vermədiyi neft və geniş su hövzələri ideologiyasını hazırlayanların "Böyük Ermənistan" əsatirinə görə qurban gedən insanların sayı və maddi itkilərin dəqiq miqyasını hesablamaq mümkün olsun".

**Bu sözləri Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, beynəlxalq münasibətlər üzrə ekspert Əziz Əlibəyli deyib. O, daha ətraflı "Şərq"ə danışıb:** "Prezident İlham Əliyevin "dənizdən-dənizə planı" ideyaların, dəyərlərin, ticarətin, yüksək standartların, nəqliyyat və kommunikasiya qovşaqlarının qitələrarası miqyasda hərəkətə gətirilməsinin açarı oldu. Həmçinin Azərbaycanı Aralıq, Qara və Xəzər dənizləri arasında ən güclü məntəqəyə çevirdi, enerji resurslarını dövlətin maddi, mənəvi və ən sonda hərbi güc mənbəyinə çevirdi. Gerçəkdən də, heyrətamiz müdriklik və cəsarətlə üç dəniz əfsanəsinin həyata keçirilməsi 35-dən artıq dövlətin mənafelərinin birləşdirilməsi demək idi. Baxmayaraq ki, sərhəd ölkələrinin heç də hamısı oradan birbaşa pay götürmürdülər. Lakin Aralıq dənizi ətrafında 24, Qara dənizin sahilində 6, Xəzər yanında isə qərarlaşan 5 dövlətin üst-üstə 3.3 milyon kv. km-dən artıq su hövzələrini birləşdirməklə ortaq limanlar, ticarət, iqtisadiyyat, mədəniyyət, siyasət, bir sözlə, vahid tale birliyini yaratmış olurdular. Hesablamaq çətin deyil ki, burada bir araya gələn vahid ÜDM və əhali kütləsi nə qədərdir. Bakını daha böyük siyasi coğrafiyaların paytaxtı etmək siyasətinin tam mahiyyəti onda dərk olunur".

**Ə.Əlibəyli Azərbaycanın geosiyasi mövqeyinin əhəmiyyətini belə izah edib:** "Axı Azərbayacana qarşı yürüdülən iki yüz illik müharibədə sözügedən ölkələrin heç biri bu qədər Abşeronun sürətlə dəyişən havasının sabitliyində maraqlı olmamışdı. Ermənilərdən fərqli olaraq, böyük Azərbaycan idealı və üç dənizə çıxmaq layihəsi torpaq işğallarını və özgə əraziləri tutmaq iddialarını nəzərdə tutmurdu. Əksinə, qitələr və regionlar arasında əməkdaşlıq platformasına çevrilərək dəyərləri və bilikləri, bacarıq və vərdişləri, fərqli mədəniyyət və ənənələri, ayrı din və məzhəbləri Bakı ətrafında birləşdirirdi. İrəvansa bu sivilizasiyadan kənarda qalırdı və "böyük" mifinin əvəzləndiyi "kiçik Ermənistan"a doğru sürətlə irəliləyirdi. Xəzər regionunun qlobal çəkisini artıran Azərbaycanın sonrakı illərdə nəinki Şərq-Qərb arasında enerji, eləcə də Cənub Qaz dəhlizi, daha sonra Bakı-Tiflis-Qars dəmir yolu xəttini, ardınca Şimal-Cənub nəqliyyat platformasını meydana gətirməsi təkcə müstəqilliyinə beynəlxalq təminatları gücləndirmədi. Eyni zamanda İkinci Qarabağ savaşına gedən yolun Baş Planını ərsəyə gətirdi. Təsadüfi deyil ki, növbəti ildönümünü yaşadığımız 2008-ci ilin 5 günlük avqust müharibəsi zamanı Gürcüstanı Rusiyanın tankları qarşısında xilas edənlərdən biri də yenə Prezident İlham Əliyev oldu".

**Kənan Novruzov**

# BMT-dən ciddi təşəbbüs gözləməyə dəyməz



## Onlar Qarabağda, insanlarımızın öz yurdlarına geri dönməsi prosesində iş görə bilməyəcəklərini dəfələrlə nümayiş etdiriblər

Rusiya Xarici İşlər Nazirliyi Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 76-cı sessiyasında Moskvanın mövqeyi ilə bağlı bəyanat yayıb. Bildirilib ki, Qarabağ bölgəsində vəziyyətin normallaşması ilə bağlı prioritet 10 noyabr və 11 yanvar üçtərəfli bəyanatların həyata keçirilməsidir.

Vurğulanıb ki, Kreml Qarabağ məsələsində Qərb strukturlarının iştirakına qarşı çıxmır: "BMT agentliklərinin, xüsusilə də BMT-nin qaçqınlar üzrə Ali Komissarlığı İdarəsinin Rusiyanın sülhməramlı əməliyyatının keçirildiyi zonada humanitar fəaliyyətə qoşulmasını faydalı hesab edirik. BMT agentliklərininin mümkün işlərinin parametrləri Bakı və İrəvanla birbaşa koordinasiyalı şəkildə razılaşdırılmalıdır".

**Qərb qurumlarının Rusiya ilə yanaşı bölgədəki proseslərə cəlb olunmasını "Şərq"ə dəyərləndirən millət vəkili, Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə deyib ki, ortaq fəaliyyət üçtərəfli bəyanatlarda da öz əksini tapıb.** Deputat bildirib ki, beynəlxalq təşkilatlar Qarabağdakı humanitar aksiyalarda iştirak edə bilər: "Amma problem ondadır ki, beynəlxalq təşkilatlar hər zaman olduğu kimi öz zəifliyini ortaya qoyurlar. Qərb ölkələrindən təşkil olunmuş qurumlar dünyanın qaynar nöqtələri ilə bağlı əsaslı addımlar ata bilmir. Ciddi dəstək göstərmirlər. BMT və digər təşkilatlar daha çox bürokratik qurumlara çevrilib. Əsasən öz sistemlərinin və aparatlarının maliyyələşməsi ilə məşğul olurlar. Ona görə də BMT-dən ciddi addım və hansısa təşəbbüs gözləməyə dəyməz. Çünki qurumun müvafiq strukturları Qarabağda, xüsusən insanlarımızın öz yurdlarına geri dönməsi prosesində iş görə bilməyəcəklərini dəfələrlə nümayiş etdiriblər".

**İsmayıl Qocayev**

# Kəlbəcərə "baxış" əndazəni aşmaqdır

"Azərbaycan torpaqları 30 il işğalda qaldığı müddətdə Tehranın mövqeyini oxumaq nə qədər çətin idisə, postmüharibə dövründəki regional siyasəti də bir o qədər şifrəlidir. Daha doğrusu, "ikibaşlıdır" desək yanılmarıq, siyasi kursu şifrəli edən də elə onun ikili standartının nəticəsidir".

***Bu sözləri siyasi şərhçi Aqşin Kərimov "Şərq"ə açıqlamasında danışıb:*** "İran işğal periodunda diplomatik bəyanatlarla sülhün və təhlükəsizliyin tərəfdarı olduğunu bildirirdisə, digər tərəfdən Ermənistanın işğalın güclənməsinə hədəflənən siyasətinə göz yumurdu və İrəvanla isti münasibətlərə üstünlük verirdi. İlk baxışda bunu dövlətlərarası münasibətlər kontekstində nəzərdən keçirərkən təəccüblü məqamlar tapmaq çətin olardı. İran siyasətinin məhək daşı olan islami prinsiplərin sərhədinə gəlincə isə əlavə suallar yaranırdı: İslam işğala, soyqırımına haqq qazandırmır və islamda ədalət mühüm prinsipdir. Bəs Tehran niyə ideoloji təməllərə qarşı gedərək Xocalı soyqırımını törədən, Birinci Qarabağ müharibəsində azərbaycanlılara qarşı amansız işgəncələr verən, etnik təmizləmə siyasəti aparan Ermənistanla bağları bərkidirdi? Fərz edək ki, Tehran "olanlar keçmişdə qalıb, gələcəyə baxmaq lazımdır" prinsipi ilə hərəkət edib. Bu zaman başqa sual ortaya çıxırdı: İran niyə işğal zamanı Ermənistanın mədəniyyət abidələrinə, məscidlərə qarşı vandallıq aktına göz yumurdu? Məgər bu, perspektiv üçün təhdid və təhlükəli mühit yaratmırdımı? Azərbaycanın Vətən müharibəsində Ermənistan üzərində qələbəsindən sonra yaranan geosiyasi reallıq bölgədə sülh və rifahın dayanıqlılığını zəruri edir. Buna görə də Bakı yeni əməkdaşlıq modelinin reallaşması üçün addımlar atır və İranı da bu platformaya cəlb edir. Bu, İranın özü üçün də "nəfəslikdir". Zəngəzur dəhlizi sanksiyaların əhatəsində məşəqqətli iqtisadi proseslərin cərəyan etdiyi İrana ticari faydalar gətirən layihədir".



"İran sərhədlərin müəyyənləşməsindən ciddi narahatlıq keçirir, Zəngəzur dəhlizinə yalnız faydalı iqtisadi dəyər gözü ilə baxır"

**Analitik, həmçinin cənub qonşumuzun təlaşından söz açıb:**

"Ona görə də Tehran Zəngəzur dəhlizinə yalnız faydalı iqtisadi dəyər gözü ilə baxır. Ancaq Tehran Azərbaycanın Qarabağ bölgəsində Ermənistanla sərhədlərini müəyyənləşdirməsindən narahatlıq keçirir. Ən azından ona görə ki, Azərbaycanın xeyrinə yeni sərhəd zolağı yaranır. Bəlkə də Tehran bunu qlobal və ya regional rəqabət prizmasından dəyərləndirir deyə, təlaş içindədir. Axı sərhədlərin müəyyənləşməsində Ankara Azərbaycana dəstək göstərir! İkinci bir tərəfdən, Rusiya, ABŞ, Avropa İttifaqı prosesdə təşəbbüsü ələ almaq niyyətlərini gizlətmir! İranın sərhədlə bağlı narahatlığının artmasında çox səbəblər axtarmaq mümkündür. Lakin nəticə olaraq, o fikrin üstündə qalmaq mümkündür ki, Tehran delimitasiya və demarkasiya prosesinə heç də müsbət yanaşmır. Bu narahatlığın "barometri" üzrə ilkin göstəricilər özünü büruzə verir. Belə ki, İranın Ermənistandakı səfiri Abbas Bədəxşan Zohuri səfirliyin hərbi attaşesi polkovnik Bəhmən Sadeginlə birlikdə Ermənistan Müdafiə Nazirliyi nümayəndələrinin müşayiəti ilə Qeqarkunik bölgəsinə səfər ediblər. Qeqarkunik Azərbaycanın Kəlbəcər rayonu ilə sərhəddə yerləşir. Azərbaycan isə bu istiqamətdə mövqelərini möhkəmləndirir. Yayılan fotolardan aydın görünür ki, özünə "əl qatan" və isterikada olan Ermənistanın yüksək rütbəli hərbçiləri keçirdikləri dərin mənəvi-psixoloji böhranı cənab səfirə izhar edirlər. Səbəblər bəllidir: İrəvan son ümid kimi İranın "ətəyindən yapışıb" özünü dikəltməyə çalışır. Çünki bundan əvvəl, Fransanın İrəvandakı səfiri sərhəd məsələsində Ermənistanın xeyrinə bəyanat səsləndirmişdi. Ardınca isə ABŞ-ın İrəvandakı səfiri Kəlbəcərlə sərhədə gəlmişdi. Lakin bunlar Azərbaycanın delimitasiya və demarkasiya ilə bağlı prinsipial mövqeyini dəyişdirmədi. Əksinə, Bakı sərhəddə hər gün "əlini gücləndirən" mövqelərdə möhkəmlənmə taktikasını sürətləndirdi. İndi Ermənistan çarəsizliyinin son həddində olan İrandan imdad diləyir. Hərçənd, İran səfiri səfər zamanı diplomatik bəyanatdan kənara çıxan bir kəlmə də işlətməyib. Səfir bildirib ki, Azərbaycan və Ermənistan təmkinli olmalı və mübahisəli məsələləri sülh yolu ilə həll etməlidir. İranın bölgədə sabitliyin bərqərar olması üçün lazımi səylər göstərməyə hazır olduğunu vurğulayıb. Obyektivlik naminə səfirin açıqlamasını qeyd etmək mütləqdir. Lakin yaranan sualları da dilə gətirmək lazımdır".

**A. Kərimovun fikrincə, Tehran bütün imkanları ilə sərhədlərin müəyyənləşməsinə mane olmaq istəyir:**

"Hələ bir müddət əvvəl İranın Xarici işlər naziri Məhəmməd Cavad Zərif Ermənistanın ərazi bütövlüyünün Tehran üçün "qırmızı xətt" olduğunu bəyan etmişdi. İndi cənab Zohurinin bu açıqlamanın yedəyində Kəlbəcərə "baxışı" diqqət çəkir. İranın hansı statusda sərhəddəki proseslərə nəzarət etmək imkanlarına yiyələnmək istəyir? İkinci sual: niyə işğal müddətində İran rəsmiləri bir dəfə də olsun nə Azərbaycanın Ermənistanla sərhəd təşkil edən ərazilərinə, o cümlədən Qazax, Tovuz, Naxçıvan, Gədəbəy, Daşkəsən gəldi, nə də işğal altında olan ərazilərə baş çəkdi? Beləliklə, İran Zəngəzur dəhlizini yalnız və yalnız iqtisadi cəhətdən dəyərləndirir, sərhədlərin delimitasiyası isə onun üçün "qırmızı xətdir". İran xarici siyasət kursunda Azərbaycanla münasibətlərini daha çox iqtisadi əlaqələrin dərinləşməsi strategiyası baxımından önə çıxarır. Bakının regional "oyunçuya" çevrilməsinə isə qısqanclıqla yanaşır".

**Kənan Novruzov**

# İranın Azərbaycana yönəlik siyasəti dəyişməyəcək

## Tehran Azərbaycan əleyhinə olan bütün amillərdən hələ də öz xeyrinə istifadə etməyə davam edir

Azərbaycan nümayəndə heyəti İranın yeni seçilən Prezidenti İbrahim Rəisinin andiçmə mərasimində iştirak etmək üçün Tehrana gedib. Bu barədə İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi rəsmi tvitter hesabında paylaşım edib. Qeyd edək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Baş nazirin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavinləri daxildir. Səfir paylaşımında bildirib ki, qonşuların dostluq və qardaşlıq münasibətləri daimidir.

**Səfərlə bağlı "Şərq"ə açıqlama verən politoloq Natiq Miri bir çox məsələlərə aydınlıq gətirib. O qeyd edib ki, İbrahim Rəisinin prezident kürsüsünə gəlməsi İran siyasətində heç nəyi dəyişməyəcək:** "İran bizim istəyimizdən asılı olmayaraq qonşuluqda davam edəcək. Ayrıca qonşu İranın bir də islam dövləti statusu var. Doğrudur, bu, görüntüdür. Şiə bayrağı altında guya şiələri İran dövləti altında birləşdirmək kimi fundamental siyasətin olduğunu biz müşahdə edirik. Ancaq realda tamamilə fərqli bir vəziyyət hökm sürür. Bu gün Ermənistan niyə İran üçün vacibdir? Ona görə ki, Ermənistan bir süni dövlət olaraq iki türk cümhuriyyəti arasında yaradılıb. Bu yolu kəsməklə Ermənistan vasitəsilə bütövlükdə bütün türk dünyasının birləşməsinin qarşısını alıblar. Bu bir qlobal layihədir və əlbəttə ki, İran da bu vəziyyətdən özünün bəhrəsi üçün istifadə edir. Çünki İran hər zaman Turanın əleyhinə olub. Bu günün özündə də dəyişən bir siyasət yoxdur. İran dövləti bir tərəfdən şiə siyasətini yürüdür, ancaq digər tərəfdən farsizm siyasətini yeridir. Bu da digərlərinin haqlarını, hüquqlarını ciddi şəkildə tapdalayır. Rəisi hakimiyyətə və prezident kürsüsünə gəlsə də İran siyasətində heç nə dəyişməyəcək. Azərbaycana münasibət eynilə davam edəcək".



N.Miri diqqətə çatdırıb ki, son günlərdə Zəngəzur bölgəsinə İranın Ermənistandakı səfiri ziyarət etdi. Əlbəttə ki, İran Zəngəzur dəhlizinin açılması məsələsindən çox narahatdır. Çünki narahatdır ki, gələcək perspektivdə vəziyyət tamamilə dəyişə bilər: "Azərbaycan Türkiyə ilə Zəngəzur dəhlizini və onun ətrafındakı əraziləri öz nəzarətinə keçirə bilər. Yəni bu siyasət faktorunun özü də göstərir ki, Azərbaycana münasibət dəyişməyib. İran Azərbaycan əleyhinə olan bütün amillərdən hələ də öz xeyrinə istifadə etməyə davam edir. Buna görə də düşünmürəm ki, hər hansı prezidentin dəyişməsilə Azərbaycana olan münasibət dəyişəcək. Doğrudur, Azərbaycanla olan iqtisadi, humanitar, mədəni, siyasi yöndə əməkdaşlıq davam edəcək. Yəni əvvəllərdə olduğu kimi, bu münasibətlərin davam etməsi məcburidir. Ancaq Azərbaycana yönəlik xarici siyasət prioritetləri dəyişməyəcək. Adekvat olaraq, əlbəttə ki, eynilə Azərbaycan da ona olan münasibəti dəyişməməlidir. Çünki dəfələrlə müşahidə etmişik ki, Azərbaycan İrana qarşı bir dostluq münasibətini nümayiş etdirir. Ancaq nəticə etibarilə biz dostluğu görməmişik. Hətta biz bunu 44 günlük müharibədə görmədik. Çünki Vətən müharibəsində də Ermənistana İran vasitəsilə silahların daşınması hadisəsini gördük. Çox təəssüf ki, bu günün özündə də nömrələri dəyişməklə İran tırları hələ də Qarabağa silah daşımağa davam edirlər. Bu nədir? Təbii ki, bu, düşmənçilik münasibətidir".

**Aynurə Pənahqızı**

# Ortada Azərbaycanın böyük qələbəsi var



## Məğlub baş nazir bu dəfə Tehranda geniş nitq söyləməyəcək

**Ermənistanın Baş naziri Nikol Paşinyan vəzifəsini rəsmiləşdirdikdən sonra ilk xarici səfərini İrana reallaşdırır. Doğrudur, bu, özəl səfər deyil. Paşinyan İranın yeni prezidenti İbrahim Rəisinin andiçmə mərasiminə qatılır.**

Ancaq o, İrandakı mərasimə başqa vəzifəli şəxsi də göndərə bilərdi. Paşinyan İbrahim Rəisinin andiçmə mərasiminə şəxsən qatılmaqla bu ölkə ilə münasibətlərə verdiyi əhəmiyyəti ortaya qoydu.

***Məsələ ilə bağlı politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlama verib.*** **O qeyd edib ki, erməni baş nazir sonuncu dəfə İranda 2019-cu ilin fevralında rəsmi səfərdə olmuşdu. Bu həm də Paşinyanın baş nazir vəzifəsində İrana ilk rəsmi səfəri idi:** "Paşinyan həmin səfərə hakimiyyətə gəldiyi ilk gündən hazırlaşırdı. Səfərdən əvvəl İranın Ermənistandakı səfirliyinin ticarət müşaviri bildirmişdi ki, 1991-ci ildən, yəni Ermənistanın müstəqilliyini qazandığı vaxtdan bəri iki ölkə arasında ticarət mübadiləsində ən yüksək göstərici məhz Paşinyanın ilk hakimiyyət dövründə qeydə alınıb. Söhbət 364 milyon dollarlıq ticarət mübadiəsindən gedirdi. Əslində rəqəm böyük deyildi. Ancaq faktın özü maraqlıydı ki, bu, iki ölkə arasındakı əməkdaşlıqda ən yüksək göstərici sayılır. Təsadüfi deyil ki, Nikol Paşinyan 2018-ci ildə baş nazir kürsüsündə xarici siyasətlə bağlı ilk geniş nitqində İranın adını Rusiyadan çox çəkmişdi. Nikol İranla iqtisadi əməkdaşlığı genişləndirmək və birgə regional layihələri reallaşdırmağı arzulayırdı. Alınmadı, verilən vədlər həyata vəsiqə qazanmadı".

*Politoloq Ermənistan baş nazirinin İrana həmin səfərinin qalmaqalla yadda qalmasını da xatırladıb:* "Paşinyan Tehranda "Ararat" idman-sağlamlıq mərkəzində erməni icmasının nümayəndələri ilə görüşərək arxa planda "Dağlıq Qarabağ Respublikasının bayrağı" və "Qarabağ Ermənistanındır" şüarı asılmış selfisini yaydı. Rəsmi Bakı Tehranda bu toplantıya aydınlıq gətirməsini tələb etdi. Çünki həmin zalda açıq-aşkar Azərbaycana və İran-Azərbaycan əməkdaşlığına qarşı təxribat həyata keçirilmişdi. İrandan qeyri-rəsmi kanallarla xəbər yayıldı ki, "Qarabağ Ermənistandır" şüarını zalda qaldıran şəxslər saxlanılıb və onlar sorğu-sual ediliblər. Bunu yoxlamaq çətin olsa da, hər halda Tehranda anladılar ki, İran ermənilərinin Paşinyanın selfisi ilə birgə həyata keçirdiyi təxribat İranın özünün əleyhinə işlədi. Nikol Paşinyan Tehrandakı çıxışında bunları demişdi: "Mən Dağlıq Qarabağın əvəzinə danışa bilmərəm, Bakı birbaşa Qarabağ ermənləri ilə danışıqlar aparmalıdır. Prezident İlham Əliyevlə danışıqlardan nəticə yoxdur. Vasitəçilər mənə "hansı güzəştlərə hazırsınız" sualını ünvanlayanda onlardan soruşuram ki, Azərbaycan hansı güzəştlərə hazırdır? Biz o zaman bu suala cavab verəcəyik ki, birinci bu suala Azərbaycan cavab versin. Kimsə düşünürsə ki, Qarabağ problemini güc yolu ilə həll etmək olar, kökündən yanılır. Bunu deyən anlamalıdır ki, qarşısında təkcə Ermənistanı yox, bütün dünya ermənilərini görəcək". Bu açıqlamadan təxminən il yarım sonra Azərbaycan müharibədə qələbə çaldı və Nikol Paşinyanın Tehrandakı çıxışının mənasız olduğu aydınlaşdı. Məğlub baş nazir bu dəfə Tehranda geniş nitq söyləməyəcək, andiçmədə iştirak edərək İran rəsmiləri ilə görüşüb geri qayıdacaq. Paşinyanla görüşəcək İbrahim Rəisi praqmatik siyasətçidirsə, Qarabağ məsələsinin Azərbaycanın xeyrinə bitdiyini anlamalı, ermənilərin İran üzərindən təxribatlarının qarşısını almalı və yeni xarici işlər nazirinə tapşırmalıdır ki, İranın Ermənistandakı səfiri qeyri-diplomatik hərəkətlər etməsin ".

**Aynurə Pənahqızı**

## Düşmən yalnız dezinformasiyalar yayır

### Ermənistanın PUA-ların qarşısını alacaq imkanı yoxdur



**Müdafiə Nazirliyi Azərbaycan sərhəddə PUA istifadə etməsi iddialarına aydınlıq gətirib.**

Azərbaycan ordusuna məxsus pilotsuz uçuş aparatının, guya, Ermənistan ərazisinə keçməsinin qarşısının alınması barədə yayılan məlumatın qarşı tərəfin növbəti yalanı olduğu və dezinformasiya xarakteri daşıdığı nəzərə çatdırılıb. Müdafiə Nazirliyindən bildirilib ki, həmin istiqamətdə pilotsuz uçuş aparatları havaya qaldırılmayıb və istifadə olunmayıb. Belə məlumatlar yaymaqla Ermənistan tərəfi mövqelərimizi atəşə tutmaq kimi təxribatlarını ört-basdır etməyə və ictimaiyyəti aldatmağa çalışır. Hazırda bu istiqamətdə əməliyyat şəraiti bölmələrimizin nəzarəti altındadır.

**Hərbi ekspert Ədalət Verdiyev düşmənin informasiya cəbhəsindəki təxribatları barədə "Şərq"ə danışıb:**

"Ümumiyyətlə, son doqquz ayda Ermənistan Müdafiə Nazirliyi çox nadir hallarda həqiqəti əks etdirən məlumatlar yayıb. Məsələn, əsgərlərimiz Xocalının Çanaxçı kəndində olan zaman düşmən hələ də Hadrutda döyüşlərin getdiyini söyləyərək ictimaiyyəti aldadırdılar. Odur ki, artıq öyrəşmişik. Belə məlumatlara inanmağın yanlış olduğunu bilirik. PUA məsələsinə gələk: Ermənistan Silahlı Qüvvələrində bu silahın qarşısını alacaq imkan yoxdur. Olsa, 44 günlük müharibədə bunu edərdilər. PUA-nın qarşısını necə aldıqları barədə açıqlama verməmələri heç də təsadüfi deyil. Bu mənada vətəndaşlar ancaq rəsmi məlumatlara inanmalı, etibar etməlidirlər".

**Kənan**

## Onlar bizə qardaş, sirdaş, dost ola bilməzlər

### Elçin Alıoğlu: "İranın Ermənistandakı səfirinin Azərbaycanla sərhəddə nə işi var?"



**İranın Ermənistandakı səfiri Bədəxşan Zohuri Kəlbəcər ilə sərhəddə yerləşən erməni hərbi hissələrinə baş çəkib.**

Onu İranın Ermənistandakı səfirliyinin hərbi attaşesi Bəhmən Sadegin və Ermənistan Müdafiə Nazirliyinin yetkililəri müşayiət ediblər. Kəlbəcər ilə sərhəddə yerləşən erməni hərbi hissəsinin komandiri, general-mayor Araik Arutyunyan son olaylardan bəhs edib.

**Jurnalist, siyasi şərhçi Elçin Alıoğlu səfirin davranışları ilə bağlı fikirlərini "Şərq"lə bölüşüb:** "O, əli ilə əsgərlərimizi göstərərək "Bax, orada durublar, bizə hədə və təhdidə çevriliblər" söyləyib. Sərhədimizə Fransa və ABŞ-ın Ermənistandakı səfirlərinin "başmaq seyr"lərini anladıq. Bəs Qarabağ müharibəsi ilə bağlı "fətva"nın verildiyi, bizə "dost və qardaş" deyən İranın Ermənistandakı səfirinin Azərbaycanla sərhəddə nə işi var?

O, durbinlə nəyə və niyə baxırdı? Yayılan fotolarda səfir Zohuri durbinlə mövqelərimizə elə diqqətlə baxır ki, sanki Ermənistan-Azərbaycan sərhədində yox, İranın sərhədlərini yarmağa çalışan qüvvənin mövqelərinin qarşısında durub.

Olmaya "Ermənistan sərhədlərinin toxunulmazlığı" İran üçün öz dərdlərindən, problemlərindən daha vacibdir? Bundan başqa, torpaqlarımızın bir hissəsinin erməni işğalında olduğu 28 il ərzində nə üçün İran belə "qayğı"nı müsəlman Azərbaycanla bağlı nümayiş etdirmədi? İran bizə qonşu və tərəf-müqabili ola bilər. Qardaş, sirdaş, dost isə əsla".

**Kənan**

# Ayaz Mütəllibov Şuşaya getmək istəyir



**Azərbaycanın sabiq prezidenti Ayaz Mütəllibov işğaldan azad edilmiş Şuşa şəhərinə səfər etmək arzusundadır.**

**Bu barədə modern.az-a Ayaz Mütəllibov özü bildirib.**

Keçmiş prezident Azərbaycan Ordusunun qələbəsini möhtəşəm qəhrəmanlıq salnaməsi adlandırıb: "Şuşanın, ümumiyyətlə, Qarabağın işğaldan azad olunması Azərbaycan xalqının tarixində çox möhtəşəm qələbədir. Tarixçilər hələ uzun müddət bu zəfər barədə öz araşdırmalarını aparacaq və yazacaqlar. Azərbaycanın igid oğulları, hərbçiləri döyüş şücaəti göstərdilər. Bu, nəinki Azərbaycana, mən deyərdim ki, beynəlxalq aləmin döyüş tarixinə də qızıl hərflərlə yazılmalıdır. Bir daha fürsətdən istifadə edib, şəhid balalarımıza Allahdan rəhmət, əzizlərinə səbr diləyirəm. Yaralı qazilərimizə də tezliklə sağalıb, həyatda öz yerlərini tutmalarını arzu edirəm".

Ayaz Mütəllibovun fikrincə, Şuşaya gediş-gəlişin təmin edilməsi dövlətimiz və Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasətinin nəticəsidir.

Sabiq prezidentin fikrincə, Azərbaycanın azad olunmuş ərazilərinə məhdud səfərlərin təşkili gələcəyə hesablanmış müdrik addımdır: "Diplomatik nümayəndələrin, mədəniyyət xadimlərinin Qarabağa səfərləri beynəlxalq aləmdə bizim mövqeyimizin möhkəmlənməsinə xidmət edəcək. Dünya ictimaiyyəti bir daha bilməlidir ki, Şuşa Azərbaycanındır, onun əzəli və ayrılmaz bir hissəsidir. Şuşanı biz tikmişik və onu uzun müddətli işğaldan sonra geri qaytardıq. İlham Əliyevin Şuşa barəsində, ümumiyyətlə, müharibədən sonra Qarabağa münasibətdə apardığı siyasəti təqdir edirəm. Biz bunun bəhrəsini bir müddət sonra görəcəyik".

## "Anam üçüm Cıdır düzündə güllər toplayıb gətirirdim"

Bundan əlavə, sabiq prezident Şuşa şəhərinin onun üçün də böyük mənəvi əhəmiyyət daşıdığını vurğulayıb: "Yəqin çoxlarına məlum deyil ki, uşaqlığım Şuşada keçib. Hələ çox kiçik ikən, təxminən 4-5 yaşlarında rəhmətlik anam üçüm Cıdır düzündə güllər toplayıb gətirirdim. Buna görə, bu dilbər guşə ilə bağlı çox kövrək xatirələrim var. Təbii, imkan olsa, böyük məmnuniyyətlə gedərdim. Belə bir fürsət yaransa, mütləq Şuşaya gedəcəyəm. Nəinki Şuşaya, həmçinin Ağdama, Laçına və digər bölgələrə də getmək istəyərdim".

# Şizofreniya xəstəsinə 7 aydır pensiya kəsilmir

## Razi Nurullayev: “Haqqını ala bilməyən yüzlərlə xəstə var və onlarla maraqlananlar yoxdur”



"Yerlərdən müxtəlif məsələlərə dair çoxlu şikayətlər daxil olur. Halbuki, onlar yerli səviyyədə də həll edilə bilər.

Yaxud mərkəzdə aidiyyəti qurumlar məsuliyyətli yanaşıb özləri həll edər, daha futbol topu kimi o qapıdan bu qapıya göndərməzlər”.

**Bu sözləri millət vəkili, Milli Cəbhə Partiyasının sədri Razi Nurullayev deyib. Deputat bildirib ki, rayonların birində bir neçə nəfər ona yaxınlaşıb və problemlərini dilə gətiriblər:** ”Hər birinin problemləri Allahın köməkliyi ilə həll edilib. Sadəcə, bir nəfərin probleminin üzərində dayanmaq istəyirəm. Həmin şəxs xəstədir, şizofreniyadır və pensiyası kəsilib. Üstündən 7 ay keçib, amma hələ də araşdırma gedir. Nə araşdırması? Həkimlər, tibbi-sosial ekspertiza komissiyaları görünən uca dağa dağ demirlər, deyillər ki, ”deyəsən dağ deyil, təpədir, yaxud alçaq dağdır”. Olmaz belə. Elə xəstəliklər var ki, görünən dağ kimi aydındır və onu tez həll etmək lazımdır”.

**Parlament üzvü qeyd edib ki, hər kəsin nazirə, müavinə, vəzifəli şəxsə çıxış imkanları yoxdur:** ”Biz də hər kəsin əlindən tutub idarələrə aparmağa vaxt edə bilmərik. Xahiş və tələb edirəm ki, görünən başı qarlı uca dağa təpə deməsinlər. Mən bir problemlə bağlı cənab nazirə yazdım, məsələ 3 gün içində tam həllini tapdı. Xəstəyə ömürlük ikinci qrup təyin edildi. Təşəkkürümü də bildirdim. Hörmətli müavinlərə də yazıram, göndərirəm, çox həssaslıqla yanaşırlar. Sağ olsunlar, bütün haqlı məsələlər də həllini tapır. Amma haqqını ala bilməyən yüzlərlə xəstə var və onlarla maraqlananlar yoxdur”.

**İsmayıl**

## Ermənilər boyun qaçırsalar...

### Bu zaman iş sərhəd qoşunlarının yox, daxili qoşunların öhdəsinə düşəcək

**”Sərhəddə ”hazır ol” əmri verən müdafiə naziri Zakir Həsənov ardınca Qarabağa getdi: azad olunmuş ərazilərdə ordunun döyüş qabiliyyətinin artırılması ilə bağlı tapşırıqlar verilib. Ordu iki cəbhədə də hazırdır...”.**

Bu sözləri siyasi şərhçi Asif Nərimanlı deyib.

**Ehtiyatda olan polkovnik Üzeyir Cəfərov analitikin fikirlərini ”Şərq”ə dəyərləndirib:** ”Biz işlərimizi düşmənin hərəkətlərinə görə yox, əvvəlcədən müəyyənləşdirilmiş proqrama görə həyata keçiririk. Əlbəttə, təxribatlar məqsədlidir. Belə hallar gözlənilən idi. Gələcəkdə də olacaq. Çünki Ermənistana konkret tapşırıq olub. Hədəf ATƏT-in Minsk Qrupunu ”dirçəltməkdir””.

**Ü.Cəfərov, həmçinin bildirib ki, Azərbaycan düşmənin istənilən provokasiyasına adekvat cavab verəcək:** ”Heç bir çətinliyimiz, narahatlığımız yoxdur. Əvvəllər daha təmkinli davranırdıq. Sülhməramlılar vasitəsilə erməniləri ”ağıllandırmağa” çalışırdıq. İndi isə tapşırıq verilib ki, düşmənin təxribatının qarşısı alınsın. Delimitasiya və demarkasiya prosesindən sonra ermənilər Azərbaycan qanunlarına əməl etməkdən boyun qaçırsalar, anti-terror əməliyyatı keçiriləcək. Və bu zaman iş sərhəd qoşunlarının yox, daxili qoşunların öhdəsinə düşəcək”.

**Kənan**

# Qazilərimizin hər biri canlı qəhrəmanlardır

## Millət vəkilləri döyüşçülərə baş çəkib



“Türkiyədə reabilitasiya prosesi keçən qalib döyüşçülərimizə baş çəkib, onlarla həm müharibə xatirələrini bölüşmək, həm də aldıqları müalicə barədə məlumat almaq üçün sözügedən tibb mərkəzində olduq".

**Bu barədə millət vəkili Elnur Allahverdiyev deyib. Deputat bildirib ki, Vətən müharibəsi iştirakçıları, torpaqlarımızın erməni işğalından azad edilməsi və ərazi bütövlüyümüzün bərpası uğrunda döyüşlərdə yaralanmış qəhrəman övladlarımızın müalicəsi daim dövlətimiz üçün prioritet vəzifə olub:** ”Onların reabilitasiyası və sağlam həyata qayıtmaları üçün görülən tədbirlər Ali Baş Komandan cənab İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Müalicələri tək Azərbaycanda deyil, xarici dövlətlərdə olan döyüşçülərimizin bərpa üçün vətəndən kənara, xüsusilə qardaş Türkiyəyə göndərilməsi işində ”Yaşat” Fondunun zəhməti danılmazdır. Görülən işlər öz müsbət, sevindirici nəticələrini verir. Onlarla igid övladlarımız qardaş ölkənin qabaqcıl tibb mərkəzlərində şəfa tapıb vətənə dönürlər. Onlardan 12 nəfəri hazırda Bursa şəhərində yerləşən ”Romatem” Fiziki Terapiya və Reabilitasiya Xəstəxanasında bərpa prosesi keçir. Bu, özəl xəstəxanadır. Xəstəxananın baş həkimi ilə söhbətimizdə müalicə prosesi ilə maraqlandıq, bərpa işlərinin yüksək səviyyədə görüldüyünə əmin olduq. Gənclərimizin hər biri canlı qəhrəmandır. Əfsanəvi zəfər yolu keçiblər. Heç birində yara aldıqlarına görə məyusluq, təəssüf hiss olunmur. Bu məğrur, igid xalqın övladları sağalıb yenidən savaşa atılmağa hazırdır. Ölkəmizin müxtəlif bölgələrindən olduqlarından həmin yaşayış məntəqələrini təmsil edən deputat həmkarlarıma onlar barədə məlumat verəcəm”.

**Qardaş ölkədə səfərdə olan millət vəkili Bursada şəhid generalımız Polad Həşimovun şərəfinə salınmış parkda və 1,2 km uzunluğunda olan küçədə də olub:** ”Həm park, həm də küçə qardaş türk xalqının, bursalıların general Polad Həşimovun simasında şəhidlərimizin xatirəsinə nə qədər önəm verməlerinin əyani göstəricisidir. Qırılmaz tarixi bağlara sahib olan qardaşlığımız əbədidir! Allah generalımıza və bütün şəhidlərimizə rəhmət etsin, yaralı qardaşlarımıza şəfa versin!”.

**İsmayıl**

Dünya üzrə meşə örtüyünün sahəsi 4 milyard hektardır. Bunun 809 milyon hektarı Rusiyanın, 478 milyon hektarı Braziliyanın, 310 milyon hektarı Kanadanın və 303 milyon hektarı ABŞ-ın payına düşür.



# Terror izi...

## Türkiyənin yanan meşələri cəbhə xəttidir

Son 200 ildə dünya üzrə meşə ərazilərinin sahəsi 2 dəfədən çox azalıb. Azalmanın əsas səbəblərindən biri yeni yaşayış məskənlərinin və iş yerlərinin salınmasıdır. Başqa təbii hadisələrlə yanaşı, meşələrdə baş verən təbii və ya süni yanğınlar nəticəsində insanların oksigen mənbələrinin sahəsi azalıb. Hər il meşələr də daxil olmaqla yer kürəsinin 340 milyon hektardan artıq ərazisi zədələnməkdədir. Məlum olduğu kimi iyulun 28-dən Türkiyədə başlayan meşə yanğınları davam edir. Faciə nəticəsində 10 nəfər həyatını itirib, çoxlu sayda heyvan ölüb, minlərlə insan evindən didərgin düşüb. Minlərlə ağac, kol və başqa bitki örtüyü məhv olub. Türkiyəni bürüyən yanğınların söndürülməsi üçün Azərbaycan, Ukrayna, Rusiya, İran, ABŞ, Avropa İttifaqı və başqa dövlətlər yardım ediblər. Qardaş ölkədə meşə yanğınlarını törədənlərin videoları yayılıb. Terrorçu PKK qruplaşmasının ”Alovun uşaqları” adlı dəstəsi meşə yanğınlarını törətdiklərini etiraf ediblər. Bir müddət əvvəl isə Türkiyənin ayrı-ayrı mətbu orqanları meşə yanğınlarında PKK terror təşkilatının üzvlərinin əli olması barədə məlumat yaymışdı.

*“Meşələri yandıranlar, yer kürəsinin yaşıl örtüyünü bilərəkdən məhv edənlər beynəlxalq ekoloji terror törədirlər”*

**Politoloq Sədrəddin Soltan deyib ki, bu gün Türkiyənin yanan meşələri cəbhə xəttidir. Ekspertin sözlərinə görə, havadarları türk düşməni olan terrorçular qardaş ölkənin ərazisinə ”basqın” ediblər:** ”Söndürülən hər yanğın ocağı Türkiyənin düşmənlərinin bağrının yarılmasıdır. Bu həm də yer kürəsi əhalisinin oksigen mənbələrindən birinin terrorçulardan xilas edilməsidir. İnsan hüquqları sadəcə bir dövlətin daxili işi deyil. Bununla bağlı dünyanın bütün dövlətlərinin bir-birinin qarşısında öhdəlikləri var. Meşələr də elədir. Onların qorunması bütün insanların, dövlətlərin işidir. Bütün insanlar meşələri, ağacları qorumağa borcludurlar. Türkiyədə meşələrin yandırılmasından bir həftə keçməsinə baxmayaraq, Qlobal Yaşıllar Hərəkatı hələ də susur. Bu beynəlxalq hərəkat 2001-ci ildə Avstraliyanın paytaxtı Kanberrada təsis edilib. Birinci Ümumdünya Konqresində Yaşılların Qlobal Xartiyası qəbul olunub. Ayrı-ayrı dövlətlərdəki yaşıllar hərəkatları, ekoloji qurumlar da terrorçu PKK-nın törətdiyi yanğınları hələ də sükutla qarşılayırlar”.

**Müsahibimiz vurğulayıb ki, yaşıl örtüklərin məhvi insanların, həyatın məhvdir:** ”Terrorçu PKK və onun dəstələri Türkiyədə meşələri yandırmaqla bütün canlıları məhv etməyi hədəf seçiblər. PKK insanlığın düşmənidir. Onlara havadarlıq edənlər də bu terrorçu qruplaşma qədər cinayətkardır. Dünya hər cür terroru lənətləyir. Türkiyədə, yaxud dünyanın istənilən bölgəsində, ölkəsində meşələri yandıranlar, yer kürəsinin yaşıl örtüyünü bilərəkdən məhv edənlər beynəlxalq ekoloji terror törədirlər”.

**İsmayıl Qocayev**

# İctimai nəqliyyat bütün günü işləməlidir



## Millət vəkili Operativ Qərargahı inadından dönməyə çağırdı



Millət vəkili Fazil Mustafa növbəti dəfə Operativ Qərargahın həftə sonları ictimai nəqliyyata qoyduğu qadağanı tənqid edib. Deputat sosial şəbəkədə yazdığı statusda bildirib ki, qarşıdan növbəti şənbə və bazar günü gəlir və bir çox insanımız üçün işgəncə və azar günləri başlayır:

"Operativ Qərargah hələ də inadından dönmək istəmir. Yenə də metronu, avtobusları işləməyə qoymayacaqlar, zavallı insanlar düşəcəklər taksi axtarışına. Pulu-parası olmayan da otursun evində, bütün vacib işlərini təxirə salsın. İnsanlarımız həm maddi, həm də mənəvi sıxıntı yaşayır. Onsuz da yay vaxtı insanların bir qismi məzuniyyətdədir, yəni iş yerlərinə axın yoxdur. Heç kim də əsaslandıra bilmir ki, iki gün ictimai nəqliyyat işləməyəndə pandemiya azala bilər. Əksinə, nəqliyyatda sıxlıq yaratmaqla insanlar üçün yoluxma riskini daha da artırırlar. Metronun girişində qızdırmanı yoxlamaq üçün aparat qoyulur və bu da profilaktika üçün kifayət edir. İctimai nəqliyyat həftənin bütün günləri işləməlidir".

**F.Mustafa vurğulayıb ki, özü metro ilə, avtobusla gedib-gəlmək məcburiyyətində olan kimsə belə bir qərarı qəbul etməz:** "Məsələyə öz komfortundan yanaşanlar bir məsələni anlamalıdırlar. Bu qərarla eyni vaxtda şəhər ətrafından gələn vətəndaş, xəstəxanaya metro ilə tələsən tibb bacısı, maaşı aşağı olan avtobus sürücüsü, televiziyaya, redaksiyaya tələsən jurnalist, yaxud da bir pensiyaçı, bir əlil boğazından kəsdiyi pulu taksiçiyə verməyə məhkum olur. Fikrimcə, təcili olaraq bu qərara baxılmalı, Bakı şəhərində bütün ictimai nəqliyyatın işləməsi təmin edilməlidir".

**İsmayıl**



## Yaxın bir ay ərzində karantin sərtləşməyəcək

### "Nə qədər çox vaksinasiya olunsaq, o qədər də təhlükəsizlikdə olarıq"

**Yaxın bir ay ərzində karantin rejiminin sərtləşdirilməsini gözləmirəm. Təbii ki, karantin rejiminin sərtləşdirilməsi yoluxma sayından, epidemioloji vəziyyətdən asılı olacaq.**

Bunu Trend-ə Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib.

M.Quliyev bildirib ki, karantin rejiminin sərtləşdirilməməsi üçün hər bir vətəndaşımız məsuliyyətli olmalıdır: "Yoluxma sayında artım hər bir vətəndaşı daha məsuliyyətli olmağa vadar etməlidir. Artıq 1.5 ilin praktikası göstərir ki, biz nə zaman karantin rejiminə əməl edirik, sosial məsafəni gözləyirik, maskadan istifadə edirik, təmasları azaldırıq yoluxma aşağı düşməyə başlayır. Nə zaman ki, təmaslar artır, eyni zamanda yoluxma da artır.

Xüsusilə, toyların başlanması, idman zallarının, restoranların və digər istirahət yerlərinin açılması bizim məsuliyyətimizi də aşağı saldı. Yoluxma saylarının azalması da insanlarımızı arxayınlaşdırdı, ancaq arxayınlaşmaq olmaz, əksinə, daha diqqətli olmalıyıq.

Vaksinasiyanın tempini bir az da artırmaq və daha ciddi şəkildə vaksinasiya prosesində iştirak etmək lazımdır. Nə qədər çox vaksinasiya olunsaq, o qədər də təhlükəsizlikdə olarıq".

# Baş nazirin oyunu uzun sürməyəcək

## Moskvada gec-tez üçtərəfli görüş baş tutacaq

"Rusiya Zabitləri" ekspertlər şurasının üzvü Aleksandr Perenciyev Ermənistan tərəfinin sərhəddə təxribat yaratdıqlarını deyib. Perenciyev qeyd edib ki, Ermənistan Azərbaycan ərazisini atəşə tutmaqla bu ölkənin əsas hissəsini Naxçıvanla birləşdirməli olan Zəngəzur dəhlizinin yaranmasının qarşısını alır.

Ekspert Ermənistan rəhbərliyinin yalnız özləri üçün deyil, həm də sərhəd zonasında təhlükəsizliyi təmin etməli olan Rusiya sülhməramlıları üçün də risk yaratdığını bildirib. Onun sözlərinə görə, İrəvanın bu cür hərəkətləri Rusiyanı Azərbaycanla münaqişəyə sürükləmək cəhdidir. Belə bir yekun Rusiyanın milli maraqlarına ziddir".

Eyni zamanda ekspert əlavə edib ki, demarkasiyanın gecikməsi yalnız müharibə zamanı itirilmiş əraziləri geri almaq istəyindən əl çəkmək istəməyən erməni "revanşistləri" üçün faydalıdır.

**Siyasi şərhçi Asif Nərimanlı "Şərq"ə bildirib ki, Rusiyanın siyasi və ekspert müstəvisində Paşinyana etimad zəifdir. Analitikə görə, Moskvada bəzi dairələr Paşinyanın sərhəd məsələsində hansısa təxribat törədə biləcəyini istisna etmirlər:** "Bu cür fikirlər də məhz o səbəbdən qaynaqlanır. Əslində, Paşinyanın üçtərəfli bəyanatların icrasında, sərhəd məsələsində təxribat niyyətində olduğu bəllidir. Lakin baş nazirin öz istəklərinə nail olub-olmayacağı sual altındadır. Fikrimcə, Paşinyan məcburi də olsa dərk edir ki, Rusiyanın imza atdığı üçtərəfli sazişlər icra olunmalı, sərhədlərin delimitasiyası başa çatdırılmalıdır. Sadəcə, Paşinyan prosesdən daha qazanclı çıxmaq istəyir. Burada Qərbin Paşinyandan istək və tələbləri də mühüm rol oynayır. Qərb Paşinyana dəstəyin əvəzində uzaq düşdüyü Cənubi Qafqaz bölgəsinə yenidən qayıtmaq istəyir. Ona görə də həm Qərb ölkələri, həm də Paşinyan Minsk qrupu formatını gündəmə gətirir. ABŞ və Avropa ölkələri anlayırlar ki, sərhəd məsələsinin çözülməsi üçün ikitərəfli anlaşma əsas şərtdir. Paşinyanın ikili oyunu hiss olunur. Baş nazir həm Rusiya, həm də Qərblə iş görür. Qərbin çağırışlarını gündəmə gətirməklə Amerika və Avropadan aldığı dəstəyi itirməməyə çalışır. Digər tərəfdən Moskvanı şantaj edir ki, əgər Rusiya ona dəstək verməsə, başqa alternativlərə baş vuracaq. Paşinyan sərhəd məsələsində Moskvanın daha çox dəstək göstərməsini istəyir. Sərhəd xəttində mütəmadi baş verən təxribatların da məqsədi budur. Ümumiyyətlə, may ayından sonra İrəvanın əsas məsələsi sərhədlərlə bağlıdır. Ermənistan anlayır ki, artıq Qarabağ məsələsi bitib və yenidən nəsə etmək mənasızdır. Ona görə də əsas diqqəti sərhədə yönəldir və müxtəlif formalarda Moskvaya təsir göstərməyə, Rusiyanın boynuna "öhdəlik" qoymağa səy göstərir. Lakin göründüyü kimi Moskva açıq tərəf olmaqdan və birbaşa dəstəkdən imtina edir. Çünki bu cür addımın Azərbaycanla münasibətlərə mənfi təsir göstərəcəyinin fərqindədir".

> "Sadəcə olaraq Paşinyan sərhəd məsələsində Moskvanın daha çox dəstək göstərməsini istəyir"



**A.Nərimanlı vurğulayıb ki, Rusiya İrəvanın istədiyi kimi davranmağı qəbul edərsə, obyektiv vasitəçilik missiyası şübhə altına düşəcək:** "Həmçinin, Rusiyanın tərəf olması Türkiyənin Azərbaycanın yanında yenidən aktiv rol almasına yol açacaq. Bu da Rusiya və Türkiyənin qarşı-qarşıya gəlməsi deməkdir və Qərbdə hazırlanmış plan hesab olunur. Paşinyan Moskvaya gələrək sərhəd məsələsində yekun sazişə qol atacağına özü də şübhə etmir. Amma baş nazir üçün əsas məsələ məsuliyyətin bölüşdürülməsidir. Sabah hansısa narazılıqda suçu Rusiyaya atacaq və deyəcək ki, günahkar Moskvadır. Yəni Paşinyanın bugünkü hərəkətləri öz siyasi ambisiyalarını qorumağa, özünü sığortalamağa hesablanıb. Çox güman ki, Paşinyan öz komandasını formalaşdırdıqdan sonra Moskvada üçtərəfli görüş baş tutacaq".

**İsmayıl Qocayev**

# Kasıbçılıq son həddə yaxınlaşır

## Azərbaycanda, xüsusən də Bakıda əhali gəlirlərinin az qala 70-75 faizini ərzaq məhsullarına və kommunal xidmətlərə xərcləyir



**Bakı əhalisi ərzağa milyardlarla pul xərcləyir. Statistik göstəricilərə görə, 2021-ci ilin yanvar-iyun aylarında Bakıda ticarət dövriyyəsinin həcmi 2020-ci ilin yanvar-iyun ayları ilə müqayisədə 3 faiz artaraq 11 milyard 7,3 milyon manat olub.**

Ticarət şəbəkəsində satılmış ərzaq məhsulları, içkilər və tütün məmulatlarının dəyəri əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,6 faiz artaraq 5 milyard 710,4 milyon manata, qeyri-ərzaq məhsullarının həcmi isə 0,4 faiz artaraq 5 milyard 296,9 milyon manata bərabər olub. İstehlak məhsullarının 35,9 faizi hüquqi şəxs statuslu müəssisələrdə, 42,5 faizi fərdi sahibkarlara məxsus ticarət obyektlərində, 21,6 faizi isə paytaxtın məhsul bazarlarında satılıb.

**Mövzu ilə bağlı "Şərq"ə iqtisadçı-ekspert Natiq Cəfərli açıqlama verib. O qeyd edib ki, əslində son illərdə ölkəmizdə əsas göstəricilər dəyişməz olaraq qalıb:** "İnflyasiyanın son bir ildə çox yüksək sürətlə artdığını və ərzaq qiymətlərinin də bahalaşdığını nəzərə alsaq, bu, insanların xərclərinə çox ciddi təsir göstərib. Dünyada belə bir maraqlı yanaşma var. Hətta bir çox ölkələrdə bu tətbiq olunur. Əgər ölkələrdəki insanlar öz gəlirlərinin 20 faizdən yuxarısını ərzağa xərcləyirsə, o insanlar kasıb sayılır. Bizdə isə rəsmi rəqəmlərə görə, insanlar ərzaq məhsullarına gəlirlərinin təqribən 50 faizini xərcləyir. Bu isə kifayət qədər ciddi mənfi göstəricidir və insanların dolanışığına birbaşa təsir edən amillərdən biridir. Çünki Amerika Birləşmiş Ştatlarında 12-15 faizi, Şimali Avropa ölkələrində 8-10 faizi, Avropa Birliyi ölkələrində isə 20-25 faizi keçmir. Biz də isə bu göstərici olduqca yüksəkdir. Onun üzərinə kommunal xərcləri də gəlsək demək olar ki, Azərbaycanda, xüsusən də Bakıda əhali gəlirlərinin az qala 70-75 faizini ərzaq məhsullarına və kommunal xidmətlərə xərcləyir. Bu da insanların yoxsulluq həddinə yaxın yaşadığının ən böyük işarələrindən biridir".

**Aynurə Pənahqızı**

## Müəllim, 55 yaşın varmı?

### Elçin Əfəndi: "Bu yaşda müəllimlərin təqaüdə göndərilməsi təhsil problemlərini həll edə bilər"



**Təhsil naziri Emin Əmrullayev Müəllimlərin İşə Qəbulundan danışıb. Nazir müsahibə mərhələsinin əsasən yer seçimi edildikdən sonra həyata keçiriləcəyini deyib.**

O qeyd edib ki, sertifikasiya imtahanının həyata keçirilməsindən sonra həm sertifikasiya, həm də MİQ imtahanlarının da 120 dəqiqə ərzində olması planlaşdırılır.

**Təhsil eksperti Elçin Əfəndi "Şərq"ə açıqlamasında təşəbbüsün doğru olduğunu bildirib:**

"Fikrimcə, bu, doğru, təşəbbüsdür. Çünki 90 sualı 60 dəqiqəyə cavablamaq tələb olunurdu. Bəzən suallar çox uzun olur. Axırına çatanacan şərt namizədin yadından çıxır. Beləliklə, bir suala 3-4 dəqiqə vaxt lazım gəlir. Odur ki, qərar yerinə düşür. Lakin bu, sualların sayının və çətinlik dərəcəsinin artırılmasına əsas olmamalıdır".

**Ekspert, həmçinin vakant yerlərlə bağlı da danışıb:** "Əməkhaqqı qədər təqaüd verilmək şərti ilə 55 yaşına çatmış müəllimlərin təqaüdə göndərilməsi, məncə, bu problemi həll edə bilər. İkinci bir tərəfdən, orta ixtisas və ali məktəblərdə pedaqoji yönümlü ixtisaslar azaldılmalıdır".

**Kənan**

# Qadınlar kişilərdən daha çox bədxərcdir

## Onlar hətta hesab edirlər ki, alış-veriş müalicəvi gücə malikdir



Qadınların alış-veriş həvəskarı olduğu hər kəsə məlumdur. Həmçinin, onlar istehlak sektorunun əsas alıcılarıdı və kişilərdən fərqli olaraq daha çox pul xərcləyirlər. Bu barədə "Daily Mail" jurnalının apardığı araşdırmaya görə, qadınlar həyatları boyu ən çox geyimə pul xərcləyir.

Bura çanta, zinət əşyaları kimi aksessuarlar da daxildir. Qadınlar arasında aparılan araşdırma zamanı onların 10 faizi hər həftə yeni bir şey aldıqlarını etiraf edib. Qadınlar hesab edirlər ki, alış-veriş onlar üçün müalicəvi gücə malikdir və həkimlərin qəbuluna getməkdən daha ucuz başa gəlir. Qadınlar xüsusən fərqli ayaqqabı növlərini almaqdan zövq aldıqlarını dilə gətiriblər. Bundan başqa qadınların ən çox vəsait ödədiyi sektorlardan biri də gözəllik salonlarıdır. Onlar daha çox kosmetik məhsullara maraq göstərirlər. Ən çox satılan kosmetik məhsul isə kirpik üçün tuşdur. Deməli, qadınlar valehedici baxışlara sahib olmaq üçün tuşa böyük ehtiyac duyurlar. Daha sonra ən çox alınan kosmetik vasitələr arasında göz qələmi və pomadadır. Estetik əməliyyatlar da qadınların çoxlu pul xərclədiyi bir sahədir. Qeyd edək ki, plastik əməliyyatlar ilk dəfə Qədim Hindistanda meydana gəlib. Orada cinayətkarların ağır əməllərinə görə burun uclarını kəsir və tez alnından dəri götürərək yenisini düzəldirdilər. O dövrdən plastik əməliyyata münasibət o dərəcədə dəyişib ki, indi insanlar, ən çox da qadınlar buna öz razılığı ilə gedir və külli miqdarda pul xərcləyirlər. Nəhəng sektor halına gələn estetik əməliyyatlara həvəs göstərən qadınların yaş qrupu 19-40 yaş arasında dəyişir. Statistikaya görə, hər il milyonlarla qadın sifət cizgilərini gözəlləşdirmək üçün plastik cərrahiyyəyə məruz qalır. Müasir dövrün qadınları istirahətlərinə də xüsusi diqqət göstərirlər. İl ərzində işləyən qadınlar yığdıqları pulları tətildə xərcləməkdə də maraqlıdırlar.



Aparılan araşdırmalara görə, qadınlardan fərqli olaraq, kişilər gündəlik istifadə edə bilməyəcəyi əşyalara pul xərcləmirlər. Onlar daha çox siqaret, ayaqqabı, cib telefonu, dönər, kontur kimi xırda tələbat mallarına pul xərcləməyə meyillidirlər. Həmçinin, araşdırma nəticəsində məlum olub ki, kişilər daha çox avtomobil, noutbuk və şans oyunlarına da çox pul xərcləyirlər. Geyimə gəlincə isə, kişilər bu mövzuda da qadınlardan geridədir.

**Mövzu ilə bağlı iqtisadçı-ekspert Rauf Qarayev "Şərq"ə açıqlama verib. O təsdiqləyir ki, qadınlar daha çox geyimlərə pul xərcləməkdə maraqlıdır:** "Qadınların psixoloji vəziyyətini nəzərə alsaq, onlar əsasən geyimlərə və bəzək əşyalarına pul xərcləyirlər. Ancaq bəzi istisna hallar da var. İstisnalar qadının işlədiyi işlə xüsusilə bağlıdır. Elə təlimçi qadınlar var ki, özünü inkişaf etdirmək üçün kitablara daha çox vəsait ödəyir. Kişilərdə isə xərclər müxtəlifdir. Bir faktı qeyd edim ki, 2021-ci ilin yanvar-mart aylarında alıcıların son istehlak məqsədilə aldıqları mallara xərclədiyi vəsaitin 16,4 faizi geyim və ayaqqabılara sərf olunub. Ötən il Rusiyada aparılan araşdırma nəticəsində məlum olub ki, kişilər onlayn ticarət zamanı qadınlardan 30 faiz daha bədxərcdirlər. "Russki standart" bankının apardığı araşdırma nəticəsində məlum olub ki, rusiyalıların onlayn ticarətdə xərclədikləri orta hesab adi mağazada xərclədikləri məbləğdən iki qat çoxdur. Bundan başqa, məlum olub ki, kişilər qadınlardan məişət xidmətlərinə 64 faiz, uşaq məhsullarına 62 faiz, hobbilərə 60 faiz, səyahətə isə 53 faiz daha çox pul xərcləyiblər. Bildirilib ki, adi mağazalarda da kişilərin çekindəki məbləğ 23 faiz daha yüksək olur. Hesab edirəm ki, indiki halda iqtisadi və psixoloji vəziyyəti nəzərə alsaq faiz nisbətində qadınlar daha çox bədxərclik edir".

**Aynurə Pənahqızı**

# Paşinyan mühüm postlara öz adamlarını yerləşdirir

## Ona görə də Rusiya Armen Qriqoryanın nazir gətirilməsinə qarşıdır



Ermənistanın yeni parlamentinin ilk iclasından 4 gün keçsə də xarici işlər naziri vəzifəsi hələ də boşdur. Ermənistanın Baş naziri Nikol Paşinyan Armen Qriqoryanı xarici işlər nazirinin birinci müavini təyin edib.

Amma hökumət başçısı xarici işlər naziri təyin etməyə tələsmir. Ermənistan konstitusiyasına əsasən, Nikol Paşinyanın hökuməti formalaşdırması üçün 5 gün möhləti var. Bu müddət avqustun 6-da başa çatacaq. Qərar qəbul etmək isə elə də sadə olmayacaq. Məsələ bundadır ki, Rusiya Armen Qriqoryanın xarici işlər naziri təyin olunmasına qarşıdır. Bu halda Rusiya tərəfi üçün ən uyğun variant Ermənistan parlamentinin keçmiş sədri Ararat Mirzoyanın XİN rəhbəri təyin olunmasıdır.

**Mövzu ilə bağlı "Şərq" açıqlama verən MCP sədrinin müavini, politoloq Məhəmməd Əsədullazadə bir çox mətləblərə aydınlıq gətirib.** Onun sözlərinə görə, ümumiyyətlə, Ermənistanla Rusiya arasında konkret olaraq kadr problemi ilə bağlı ciddi fikir ayrılığı var: "Çünki Rusiyanın əsas məqsədi odur ki, Ermənistan hökumətində konkret olaraq onlara yaxın şəxslər güc nazirliklərində təmsil olunsun. Onlar Ara Ayvazyan kimi şəxslərin Ermənistan Xarici İşlər Nazirliyində təmsil olunmasını istəyir. Rusiya çalışırdı ki, keçmiş müdafiə naziri Arutyunyan xarici işlər naziri olsun. Əlbəttə ki, Ermənistanın Baş naziri Nikol Paşinyan bununla razılaşmır. Çünki Nikol Paşinyan konkret olaraq Qərbin, Sorosun adamlarını hökumətdə yerləşdirir. Bununla da gələcək perspektivdə Rusiyaya qarşı dayanıqlı bir mübarizə hazırlayır".

**M.Əsədullazadə Nikol Paşinyanın əsas strateji planının Rusiya mövqelərini Ermənistanda zəiflətmək olduğunu deyib:** "Armen Qriqoryana gəldikdə isə o, Nikol Paşinyanın yaxın adamıdır və onun kadrıdır. Əvvəllər Təhlükəsizlik Şurasının katibi olub. O, bir çox siyasi məsələlərdə konkret olaraq hökumətin Paşinyanın mesajlarını onun dili ilə danışır. Amma Ara Ayvazyan Kremldən təlimlər alır. Rusiyaya Sergey Lavrovdan təlimatlar alan nazir lazımdır. Ona görə də Rusiya Armen Qriqoryanın nazir gətirilməsinə qarşıdır. Düşünürəm ki, Nikol Paşinyanın hazırda xarici işlər naziri postunu boş saxlamağı da bununla əlaqəlidir. Görünür ki, burda manevr edir. Fikrimcə, Paşinyan istədiyinə nail olacaq və A.Qriqoryanı nazir təyin edəcək. Təbii ki, Rusiyanın burda əsas məqsədi Kremlə yaxın adamı burda nazir qoymaq və konkret olaraq Azərbaycan-Ermənistan arasında münasibətləri gərginləşdirməkdir. Yəni Xarici İşlər Nazirliyini özündən asılı salmaq və hökumətin işini pozmaqdır. Bununla da regionda sülh danışıqlarının başlanmasına və Azərbaycanla əlaqələrin qurulmasını sabotaj etməkdir. Həmçinin, Rusiya çalışır ki, hökumətdə ona yaxın kadr təyin etməklə, gələcək perspektivdə Nikol Paşinyan hökumətini silkələsin və Ermənistanda öz mövqelərini bundan sonra da qoruyub saxlaya bilsinlər".

**Aynurə Pənahqızı**

### Avropada şiddətlənir, Rusiyada sabitləşir

ÜST koronavirusla bağlı mühüm məlumat yaydı



**ÜST dünyada koronavirusun yayılması barədə açıqlama ilə çıxış edib.**

Bu barədə "Şərq" TASS-a istinadən xəbər verir. Bildirilir ki, məlumatda Avropada yoluxmaların artdığı vurğulanıb. Rusiyada isə əksinə, vəziyyət tədricən sabitləşir. Məlumatda, həmçinin pandemiyanın ilk günündən etibarən 199.6 milyon insanın koronavirusa yoluxduğu, 4.2 milyondan çox insanın öldüyü göstərilib.

### İran səfərində "durbin" məsələsi müzakirə olunmayacaq

**Azərbaycan nümayəndə heyəti İranın yeni seçilən Prezidenti İbrahim Rəisinin andiçmə mərasimində iştirak etmək üçün Tehrana gedib. Bu barədə İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi rəsmi tvitter hesabında paylaşım edib.**

Nümayəndə heyətinin tərkibinə Azərbaycan Milli Məclisinin sədri Sahibə Qafarova, Baş nazirin müavini Şahin Mustafayev, xarici işlər nazirinin müavinləri daxildir.

Politoloq Sədrəddin Soltan bu səfərin işgüzar xarakter daşıdığını deyib: "Yəqin ki, qarşılıqlı əməkdaşlıqdan danışılacaq. Amma İran səfirinin Azərbaycan-Ermənistan sərhədinə getməsinin müzakirəyə çıxarılacağına inanmıram. Səfir hökumətinin tapşırığına uyğun olaraq müşahidə keçirib. Uzaqbaşı durbinlə sərhəddə baxıb. Nümayəndə heyətimiz necə deyə bilər ki, o, niyə müşahidə keçirib? Bu bir az məntiqsiz görünür".

**Kənan**

# Anti-türk güclər aranı qarışdırır

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Türkiyə televiziyalarına müsahibəsində günlərdir davam edən meşə yanğınları ilə bağlı bir sıra məqamlara toxunub. Ərdoğan yanğınlarda terror şübhəsinin olduğunu bəyan edib: "Yanğınlarda terror, təxribat şübhəsilə əlaqədar hazırda polis və kəşfiyyat təşkilatlarının araşdırmaları davam edir. Bu məsələ ilə əlaqədar əvvəldən narahatlıqlarımız vardı. Ehtimallarımız doğru çıxdı. Saxlanılan şübhəlilər arasında həbs olunanlar oldu.

Həbs olunanların ailələrinin PKK ilə əlaqəli olduğunu da öyrəndik. Ötən il Hatayda baş verən meşə yanğınları zamanı belə faktlar olub, bunu çox açıq şəkildə yaşadıq. Keçən il bunu yaşadığımız halda, bu il yaşamadıq demək doğru olmaz. Belə bir məsələ var, ya yox, bütün polis qüvvələrimiz, istihbaratımız bunu araşdırır. Varsa, təbii ki, bunun üzərinə gedəcəyik". Xatırladaq ki, PKK-ya yaxınlığı ilə bilinən "Alovun uşaqları" adlı təşkilat Türkiyənin müxtəlif bölgələrində baş vermiş yanğınların məhz onlar tərəfindən törədildiyini etiraf ediblər.

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyədə baş verən prosesləri çox düzgün qiymətləndirdi. Eyni zamanda bu cür məsələlərin həddindən artıq ictimailəşməsinin tərəfdarı olmadığını büruzə verdi:** "Bu, ölkə daxilində qarşıdurma yarada biləcək, Türkiyənin çoxsaylı xarici düşmənlərini aktivləşdirəcək olaydır. Əslində Türkiyədə bu cür təxribatların olacağı əvvəlcədən gözlənilən idi. Türkiyə bir çox məsələlərdə dünya siyasətini yönəldən dövlətə çevrilib. Sadəcə Yaxın Şərqdə, yaxud türk dünyasında deyil, eyni zamanda islam aləmində də söz sahibidir. Əlbəttə, bunu arzulamayan qüvvələr var və onların başında erməniləri dəstəkləyən dövlətlər - Fransa və Yunanıstan durur. Bu və ya digər formada İranla, Rusiyanı da bura əlavə etmək olar. Livan da bu prosesin əsas iştirakçılarındandır. Türkiyənin Şimali İraqda, Suriyada, Liviyada, Əfqanıstanda həyata keçirdiyi missiyalar, 44 günlük Qarabağ savaşında Azərbaycanın yanında olması ermənisevər qüvvələrin yuxusunu qaçırıb. Digər yandan Türkiyə son illər ərzində iqtisadi sahədə böyük yol qət edib. Qarabağ savaşı Türkiyənin hərbi sahədə də kifayət qədər öndə olduğunu sərgilədi. Dünyada bütün siyasi maraqlar iqtisadiyyat üzərində qurulur və əsasən silah satışı üzərindən formalaşır. Türkiyə dünyanın silah bazarında ilk üçlüyə daxil olmağı bacardı. Halbuki, uzun müddət qardaş ölkə heç onluğa belə düşə bilmirdi. Silah mafiyaları Türkiyənin böyüməsindən ciddi narahatlıq duymaqdadır. Eyni zamanda şimal-cənub qonşularımız da Türkiyənin söz sahibinə çevrilməsindən, türk dünyasının liderinə çevrilməsindən təşvişə düşürlər. Jirinovski kimi adamları danışdıran, İranın Ermənistandakı səfirini sərhədə aparan səbəblər də bunlardır".



Qısa zamanda meşələri yandıran terrorçuları və onların arxasında duranları tam ifşa edəcəklər

**C.Nuriyev qeyd edib ki, Türkiyə bu il böyük açılımlar edərək, turizm sahəsində bir neçə pillə önə keçmişdi:** "Bu məqam Avropa dövlətlərini, bəzi müsəlman ölkələrini ciddi düşündürürdü. Türkiyə daxilində FETÖ və PKK kimi anti-türk güclər var və gizli fəaliyyət göstərirlər. Məhz onların vasitəsi ilə Türkiyəni çökdürmək, iqtisadi baxımdan zəiflətmək, geri salmaq üçün yanğın təxribatına əl atdılar. Türkiyədəki yanğın sadəcə oradakı meşələri tələf etmir, bütövlükdə dünyanın oksigen bazasını azaldır. Türkiyənin təhlükəsizlik qüvvələri yaxşı işləyirlər. Qısa zamanda meşələri yandıran terrorçuları və onların arxasında duranları tam ifşa edəcəklər. Əslində artıq hamı bilir ki, indiki məqamda onları maliyyələşdirən Fransa və Türkiyədəki erməni əsilli iş adamlarıdır. Əminəm ki, bunun arxasından İspaniya, Yunanıstan, Argentina, Rusiya və İrandakı erməni biznesmenləri də çıxacaq".

**İsmayıl Qocayev**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Böyük hədəflərimizdən yayınmayaq

### *Hər kəs yanğınlara qarşı diqqətli olmalıdır*

Dünyanın bir çox ölkəsində günlərlə davam edən meşə yanğınları göstərdi ki, heç bir ölkə bu cür fəlakətlərdən sığortalanmayıb. Xüsusən, qardaş Türkiyədəki yanğınlar təbiət, ekologiya, insan həyatı, iqtisadiyyat və turizm üçün nə qədər təhlükəli olduğunu əyani göstərdi. Məlum olduğu kimi son günlər Azərbaycanda da yanğınlar müşahidə olunur.

Öncə Yardımlının Honuba kəndində, daha sonra isə Lənkəranın Milli Parkında meşə zolağında yanğınlar başlayıb və iki gün davam edib. Sonra Ağsunun Gəgəli kəndində alovlar yüksəlib. Yanğın FHN əməkdaşları və kənd əhalisinin köməkliyi ilə söndürülsə də, Şamaxı rayonu istiqamətinə keçməsinə mane ola bilməyiblər. Meşə yanğınlarının təsnifatlandırılmasına baxsaq, əksər yanğınların məhz insan ehtiyatsızlığından, qaydalara düzgün əməl olunmamasından qaynaqlandığını görərik. Təsadüfən bir nəfər siqaret atır, yaxud başqa məqsədlə od qalayır və bununla da yanğın başlayır. Bu, ehtiyatsızlıqdır. Digər səbəb isə təxribatdır. Qardaş Türkiyədə meşə yanğınlarının PKK terrorçuları tərəfindən törədildiyinə dair əsaslı faktlar mövcuddur. Lakin vurğulandığı kimi, meşə yanğınları əsasən insanların ehtiyatsızlığından, yaşıllıq zonasının tələblərinə riayət etməməkdən meydana gəlir. Çoxlarımızın hektarlarla sahəni əhatə edən meşələrin, sıx kolluq və çəmənliklərin kiçik qığılcımla qısa müddətdə məhv olacağına ehtimal vermirik. Məsələ ondadır ki, meşə yanğınları sadəcə 50-100 ağacın tələf olması deyil. Günlərlə davam edən və geniş ərazilərə yayılan yanğınlar fauna və floraya ciddi zərbə vurur. Eyni zamanda insan itkisinə səbəb olur, yaşayış evlərini, iaşə obyektlərini, meşə və ev heyvanlarını yandırıb kül edir. Turizm sektoru da yanğınlar nəticəsində ciddi ziyan görür. Bütövlükdə dövlət, vətəndaşlar, o cümlədən sahibkarlar böyük maliyyə itkisi ilə üzləşirlər. Yanğının məhv etdiklərini yenidən bərpa etmək üçün milyonlar, bəzən isə milyardlar lazım olur. Məhz bunların baş verməməsi, dövlətimizin və xalqımızın əziyyət çəkməməsi üçün hər bir vətəndaşın üzərinə məsuliyyət düşür. Hamımız daşıdığımız məsuliyyətin fərqində olmalıyıq. Xüsusən yay aylarında, insanların istirahət üçün dağlıq-meşəlik ərazilərə üz tutduğu bir vaxtda maksimum ehtiyatlı davranmalıyıq. Vətəndaşlar təbiət qoynunda olarkən açıq alovdan qətiyyən istifadə etməməlidir. Piknik yerlərini tərk edərkən ərazidə qalanan ocağın sönməsindən tam əmin olmalı, meşəlik ərazilərə siqaret kötüklərini atmamalıyıq. Dövlətin və ictimaiyyətin maraqlarını qorumamaq hər birimizin vətəndaşlıq borcu, konstitusion vəzifəmizdir. Bəzən, kənd təsərrüfatı məqsədilə əkilmiş sahələr biçildikdən, məhsul yığıldıqdan sonra adətən sahələrə od vurulur və düşünülür ki, növbəti dəfə məhsuldarlıq daha da çox olacaq. Bu, tamamilə yanlış yanaşmadır. Çünki yanğın torpağın üst hissəsində olan mineralların məhv olmasına gətirib çıxarır. Həm də əkin sahələrindəki yanğınlar asanlıqla meşəlik ərazilərə keçir və qarşısını almaq çətin olur. Əgər həmin günlərdə küləkli hava müşahidə olunarsa, yanğınlara müdaxilə etmək daha da qəlizləşir.



**Millət vəkili Cavid Osmanov "Şərq"ə açıqlamasında vurğulayıb ki, Türkiyədə meşə yanğınları geniş ərazini əhatə etdi. Deputat vurğulayıb ki, Türkiyənin turizm bölgəsində baş verən yanğınlar ciddi fəsadlara yol açdı:** "Azərbaycan dövləti və xalqımız həmişə olduğu kimi bu dəfə də hər anlamda qardaş Türkiyənin yanında olduq. Prezident İlham Əliyev hadisə baş verən kimi dərhal Türkiyə lideri Rəcəb Tayyib Ərdoğanla əlaqə saxladı, yanğında həyatını itirənlərə baş sağlığı verdi və istənilən yardımın göstəriləcəyini vurğuladı. Yüzlərlə şəxsi heyət və texnika Türkiyəyə dəstəyə göndərildi. Əlbəttə, heç bir ölkə yanğınlardan sığortalanmayıb və son günlər dünyanın bir neçə ölkəsində baş verən hadisələr bunu əyani sübut etdi. Əfsuslar olsun ki, Azərbaycanın bəzi şəhərlərində də yanğınlar baş verdi. Əvvəlcə Yardımlı və Lənkəranda, sonra Ağsu və Şamaxıda meşə yanğınları ilə üzləşdik. Yanğınların arealının genişlənməsi ekologiyanı pis günə qoymaqla yanaşı, insan tələfatına da yol açır. Eyni zamanda evlər, obyektlər yanır, infrastruktur məhv olur. O cümlədən iqtisadiyyata böyük zərbə dəyir. Ona görə də hər vətəndaş bu məsələdə ayıq-sayıqlığı əldən verməməlidir. İsti yay günləridir, həm də kənd təsərrüfatı işlərinin getdiyi, taxıl biçininin vaxtıdır. Bəzən əkin sahələrini də yandırırlar. Əksər hallarda isə insanlarımız sərinləmək, istirahət etmək üçün dağlıq-meşəlik ərazilərə üz tuturlar".

### *İlk növbədə öz həyatımızı, ikincisi isə iqtisadiyyatımızı qorumalıyıq*

**Parlament üzvü vurğulayıb ki, meşələrdə və yaşıllıq bölgədə hansısa məsuliyyətsiz yanaşma, ehtiyatsızlıq böyük faciə ilə nəticələnə bilər:** "Bu baxımdan hamımız diqqətli olmalıyıq. İlk növbədə öz həyatımızı, ikincisi isə iqtisadiyyatımızı qorumalıyıq. Yanğınlara səbəb olacaq məsuliyyətsiz hərəkətlərin qarşısını almalıyıq. Bu, hamımızın vətəndaşlıq borcudur və ona görə də laqeyd yanaşmaq yolverilməzdir. İstər işğaldan azad edilmiş ərazilərimiz, istərsə də digər dağlıq-meşəlik bölgələrimizdə yanğınların baş verməsi gələcək planlarımıza zərbə vura bilər. Azərbaycanın qarşısında böyük hədəflər var. Əlxüsus, işğaldan azad olunmuş ərazilərimizdə genişmiqyaslı quruculuq işlərinə start verilib".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Səfirin sərhədə səfəri anormal addımdır

### *Fərəc Quliyev: "Tehran hərəkətlərini redaktə etməsə, biz münasibətimizi dəyişməli olacağıq"*

İranın Ermənistandakı səfiri Abbas Zohuri Ermənistan-Azərbaycan sərhədinə səfər edib. Erməni hərbçilərinin müşayiəti ilə sərhəd bölgələrinə baş çəkən səfir əsasən gərginlik yaşanan məntəqələrdə olub. İran səfiri sərhəddəki gərginliyə görə narahatlıq keçirdiklərini bildirib və son hərbi qarşıdurmalarda həlak olan erməni hərbçilərinin ailələrinə başsağlığı verib. Erməni hərbi hissəsinin komandiri sərhəddəki vəziyyətlə bağlı səfirə ətraflı məlumat verib.



İran səfirinin ermənilərin səngərində dayanıb Azərbaycan ərazilərinə durbinlə baxması dost hesab olunacaq bir ölkənin diplomatının davranışı ilə uyğun deyil. İctimaiyyətin yadındadır ki, Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadənin "Ayətullah Xamenei həzrətlərinə müsəlmanlar adından təşəkkürümü bildirirəm. Ayətullah Xameneinin - "Qarabağ torpağı islam torpağıdır", - deyərək fətva verməsi qələbənin carçısı idi və bizi qələbəyə apardı" fikirləri haqlı etirazla qarşılanmışdı. Çünki Azərbaycan xalqı 44 günlük müharibədə İranın necə mövqe nümayiş etdirdiyini dəqiq bilirdi.

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bu barədə "Şərq"ə açıqlamasında cənub qonşumuzun addımlarını qınadı:**

"Biz həmişə İranla təktərəfli qonşuluq siyasəti yeritməyə çalışmışıq. Bakı Tehrana qarşı təzyiqlərdə iştirak etməyib. Amma İranın addımları daim qeyri-adekvat olub.

Müharibə vaxtı hətta xristian dövlət olmasına rəğmən, Gürcüstan Ermənistanla yolu bağladı. İran vasitəsi ilə isə 900 tonadək silah-sursat daşındı. Həmin avtomobillərin görüntüləri də sosial şəbəkələrdə yayılmışdı".

**F.Quliyev düşünür ki, bu, bizim də qonşu ölkəyə siyasətimizin dəyişməsinə səbəb ola bilər:** "İran müsəlman ölkəsi olmasına baxmayaraq, bir dəfə də olsun erməni silahlılarının Qarabağdan çıxarılması barədə bəyanat verməyib. Tehranın Azərbaycanla Ermənistan arasında sərhədlərin müəyyənləşdirilməsinə dair narahatlığı göz qabağındadır.

Səfirin sərhədə səfəri isə ümumiyyətlə, anormal addımdır. İranın Azərbaycanda da səfiri var. O, bizim müşayiətimizlə istədiyi yerə gedə bilərdi. Fikrimcə, Tehran hərəkətlərini redaktə etməsə, biz münasibətimizi dəyişməli olacağıq".

**Kənan Novruzov**

## Azərbaycanda gənc qız və oğlan intihar edib



**Bakıda intihar hadisəsi qeydə alınıb. "Qafqazinfo" xəbər verir ki, avqustun 3-də 1990-cı il təvəllüdlü Elşən Əhmədov intihar edib.**

Hadisə Nəsimi rayonu, Moskva prospektində baş verib. E.Əhmədov yaşadığı mənzilin sanitar qovşağında özünü asıb.

Digər intihar hadisəsi isə Şahbuz rayonunda qeydə alınıb. 1997-ci il təvəllüdlü Yasəmən Almәmmədova Keçili kəndində yaşadığı evin həyətində özünü asıb.

## Ağdaşda 6 yaşlı uşağı it dişləyib



**Ağdaşda it 6 yaşlı uşağın baş nayihəsinə ağır xəsarət yetirib.**

APA-nın Mingəçevir bürosunun məlumatına görə, hadisə rayonun Kotavan kəndində baş verib.

2015-ci il təvəllüdlü kənd sakini Abdullayev Yusif Cavid oğlu küçə itinin hücumuna məruz qalıb. İt uşağın başının arxa nahiyəsində sərt dişlək almaqla dərin yara açıb. Yaralı Mingəçevir Şəhər Mərkəzi Xəstəxanasına yerləşdirilərək dərhal əməliyyat olunub.

# Bu il dövriyyə 82 milyon dolları keçib



*Son dövrlər Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin artması müşahidə olunur*

Ötən gün Özbəkistanın İnvestisiyalar və Xarici Ticarət Nazirliyindən bildiriblər ki, Özbəkistanda Azərbaycan kapitalı ilə 195 müəssisə fəaliyyət göstərir, bunlardan 69-u birgə müəssisədir. Qeyd olunub ki, Azərbaycandan Özbəkistana əsas kapitala cəlb olunmuş birbaşa investisiyaların həcmi 320 min dollardan çox təşkil edib.

Nazirlikdən bildiriblər ki, 2020-ci ildə Azərbaycandan Özbəkistana xidmət və malların idxalı 2019-cu illə müqayisədə 36 faiz artıb. Bu ilin yanvar-may ayları ərzində Azərbaycandan idxal 2020-ci ilin eyni dövrü ilə müqayisədə dəyişməz qalıb.

**Mövzu ilə bağlı Milli Məclisin deputatı, iqtisadçı-ekspert Vüqar Bayramov "Şərq"ə açıqlama verib. O bildirib ki, son dövrlər Azərbaycanla Özbəkistan arasında ticarət dövriyyəsinin artması müşahidə olunur:** "2020-ci ildə pandemiya olmasına baxmayaraq Özbəkistanla Azərbaycan ticarət dövriyyəsi 2019-cu ilə nisbətən artaraq 82 milyon dollardan çox olub. Eyni zamanda, son üç ildə iki ölkə arasında ticarət dövriyyəsi də iki dəfə artıb. Bu isə ondan xəbər verir ki, ölkələr arasında birbaşa xarici investisiya qoyuluşlarında artımlar var. Özbəkistan şirkətləri Azərbaycanda həm xidmət, həm ictimai iaşə, xüsusən də qeyri-neft sektorunda fəaliyyət göstərir. Nəticədə iki ölkə arasında ticarət dövriyyəsi genişlənir. Həmçinin, iki ölkə arasında qarşılıqlı investisiya qoyuluşlarının artmasını da müşahidə edirik. Bu da nəticə etibarı ilə ölkələrin iqtisadi münasibətlərinin genişləndirilməsinə xidmət edir. Azərbaycan da Özbəkistan və Orta Asiyaya investisiya qoyuluşunda maraqlı ölkədir. Həmçinin, ölkəmiz də Orta Asiya ölkələri ilə iqtisadi əlaqələrini genişləndirir. Bu da ondan xəbər verir ki, Azərbaycan və Özbəkistan arasında artan dinamika ilə inkişaf edən ticarət dövriyyəsi, eləcə də qarışıq investisiya qoyuluşları növbəti illərdə daha da artacaq".

**Aynurə Pənahqızı**

# "Siyasət oyundur, sevgi isə həm oyun, həm də dəlilikdir"

*Türkan Turan: "Yazmağa başladığım ilk gündən hiss etdiyim həyəcan bir an olsun dinmir. Elə lazım olan da budur; tükənməyən həyəcan!"*



Jurnalist, yaçısı Türkan Turanın bir müddət əvvəl çapdan çıxan "Saranın gözləri" romanı ölkə daxilində və qardaş Türkiyədə ciddi maraq doğurmuşdu. Oxucular müəllifin ilk romanını həvəslə mütaliə etmişdilər. Yazar artıq ikinci əsəri üzərində işləməyə başlayıb. "Saranın gözləri" kimi "Filosofun sevgilisi" də türk dilində nəşr olunacaq.

"Şərq" olaraq müəlliflə üzərində işlədiyi yeni kitab barədə söhbətləşdik. - Əsərin cəzbedici adı var. Deyəsən, oxucuları maraqlı sevgi hekayəsi gözləyir...

- Ad yanıltmasın, qəhrəmanları yaşlı filosof və gənc qadın olan bu əsər içərisində sevginin də olduğu çalxantılı, qanlı, həyəcanlı cinayət romanıdır. Siyasi, psixoloji çalarlar da öz yerində...

**- Necə oldu ki, belə bir əsər yazmağa qərara aldınız?**

- Diqqətimi çəkən və şahid olduğum hadisələr bu əsəri yazmağa sövq etdi. Xeyli vaxt beynimdə götür-qoy edirdim. Əslində bu kitabı bir neçə il əvvəl, hətta "Saranın gözləri" romanımdan öncə yazmaq istəyirdim. Amma risk edə bilmirdim. Daha doğrusu, cəsarətim çatmırdı. Çünki yaradacağı səs-küyə hazır deyildim. Bir müddət əvvəl kompüterin arxasına keçdim, ilk cümləni yazan kimi romanın adı beynimdə siren səsi kimi yanıb-sönməyə başladı və həyəcanım birəbeş artdı. Hətta tez-tez qulağımın eşidəcəyi tərzdə təkrarlayıram, "Filosofun sevgilisi", "Filosofun sevgilisi"... Bu məni inanılmaz dərəcədə xoşbəxt edir. Düşünürəm ki, bu an məni heç nə belə çox həyəcanlandıra bilməz.

**- Yaradacağı sensasiyaya hazırsınız?**

- Yəqin ki, hazır olmasam başlamazdım.

**- "Filosofun sevgilisi"ni dünya ədəbiyyatındakı hansı əsərlə müqayisə etmək olar?**

- Heç bir əsərlə müqayisə etmək istəmirəm. Çünki yazdığım gerçək hadisələr əsasında qələmə alınan qurğu romandır. Ona görə də, düşünürəm ki, bu əsər bir başqasının nə bənzəri olacaq, nə də təkrarı.-

**- Dediniz ki, əsərinizdə həm sevgi, həm də siyasət var. Bu iki məfhumu eyni yerdə necə təsəvvür etmək olar?**

- İkisi də saf niyyətlə, böyük gözləntilərlə başlanan, oyun və hiylə ilə bitən bir proses olduğu üçün ikisini rahatlıqla yan-yana gətirmək olar. Məsələn, siyasətdə olduğu kimi sevgidə də riyakarlıq var. Xəyanət ikisinə də məxsusdur. İkisinin də meydanına təmiz girə bilərsən, amma o meydandan heç vaxt girdiyin kimi çıxmırsan. Ya çox kirlənirsən, ya daha çox kirlənirsən. İkisində də məğlub olursan: ya qarşındakına, ya hisslərinə, ya da zamana...

**- Hər ikisi də oyundursa, siyasətlə sevginin fərqi nədir?**

- Belə deyim, siyasət oyundur, sevgi isə həm oyun, həm də dəlilikdir. Siyasət mənəm-mənəmlikdir, tamahkarlıqdır, ancaq özünü, öz mənfəətini, çıxarlarını düşünürsən. Sevgidə isə kimliyini unudursan. Öncəliyin qarşıdakı olur. Onur, qürur arxa plana keçir. Məntiq yox olur, səni hisslər, duyğular idarə edir. Romanda bunlar səhifələrdə ilmə-ilmə toxunur.

**- Maraqlıdır, gənc qızı özündən dəfələrlə böyük filosofa çəkən nədir?**

- Çox şey. Ən əsası dərin ağıl, iti zəka... Bir də günəş kimi parıldayan təbəssüm. Təbii ki, bunun psixoloji və duyğusal tərəfləri də var.

**- Bilirik ki, filosoflar adətən tərki-dünya olurlar. Bəs qız belə bir adamı öz dünyasından necə çıxarır?**

- Tərki-dünya olurlar deməzdim. Dərin düşüncədən ibarət olurlar. Məsələn, Nitsşe, Şopenhauer, Aristotel, Kant, Sokrat, Dekart oxuyub yazdıqları düşüncələrin içərisində özümüzü itirdiyimiz filosoflardır... Amma həyatlarını araşdırdıqca baxırsan ki, hər birinin içərisinə işıq sızan bir çatlaqları var. Nə qədər filosof deyib heyranlıq duysaq da, nəticə də onlar da intihar edə biləcək qədər insandırlar. Bizim qız da filosofun qapalı dünyasına iynə ucu boyda tapdığı bir dəlikdən daxil olur. Həmin dünyanın daha əvvəl görmədiyi, bilmədiyi, təsəvvürünə belə gətirmədiyi aydınlıq və qaranlıqlarla dolu bir yer olduğuna şahid olur. Qızı o dünyaya dartıb salan isə dəli cəsarəti və hər şeyə duyduğu maraq olur. Özünü kişinin həyatının ortasına bomba kimi atır və filosofun qəlbini zəbt edir. Amma sonra baş verənlər Şopenhauerə dua oxudacaq cinsdən olur (gülür).

**- Bəs bu qədər cəsarətli və radikal addımların filosof üçün əks-effekt verəcəyini düşünmür?**

- Xaos başlayanda insan əvvəlcə çaş-baş qalır, şoka düşür, daha sonra dərindən nəfəs alaraq nə baş verdiyini anlamağa çalışır. Filosof bunu anlayana qədər qız onun həyatının yuxarı başına çoxdan keçmiş olur. Eşqin bir dönəmi var ki, qarşıdakı filosof deyil, Tanrı belə olsa bu duyğu ona məntiqini sıfırladır. İradə eşqin əlinə keçir və insana ağlagəlməz hərəkətlər etdirməyə başlayır. Hətta bəzən baxırsan ki, əlindən tutub səni ölümün həndəvərində dolaşdırır.

**- Romanınızın taleyi barədə nə düşünürsünüz?**

- Düşüncələrim parlaq, işıqlıdır. Yazacaq hekayəm, mövcud obrazlarım var. Yəni bir roman üçün lazım olan hər şey varsa, artıq roman özü öz taleyini həll etmiş sayılır. "Saranın gözləri"ndə olduğu kimi "Filosofun sevgilisi" də özünü rahatlıqla yazdırır. Hadisələr barmaq uclarımdan axaraq tökülür kompüterin yaddaşına. Bu, bir yazıçı olaraq mənim üçün sevindirici haldır. Ən əsası yazmağa başladığım ilk gündən hiss etdiyim həyəcan bir an olsun dinmir. Elə lazım olan da budur; tükənməyən həyəcan!

**Kənan Novruzov**



## On il stajı olanlar imtahan verməyəcəklər

Kamran Əsədov: "Problem vakant yerlərlə bağlıdır"

**"Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa 31 may 2021-ci il tarixli 340-VIQD nömrəli Qanuna bir sıra dəyişikliklər edilib.**

Bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb. Bildirilib ki, qanuna edilən dəyişikliklər dövlət qulluğuna qəbul, fəaliyyətin davam etdirilməsi, yüksəliş, ehtiyat kadrların idarə edilməsi və digər məsələləri əhatə edir. Dəyişikliklərin biri də on il stajı olan şəxslərin dövlət imtahanından azad olunması ilə bağlıdır.

Təhsil eksperti Kamran Əsədov "Şərq"ə açıqlamasında bu məsələyə fikir bildirib: "Qanunda nəzərdə tutulub ki, dövlət qulluğuna qəbul müsabiqə və müsahibə yolu ilə keçirilir. Bu proses ölkəmizdə tam obyektiv və şəffaf aparılır. Fikrimcə, dövlət orqanlarında uzun illər işləyən şəxslərin test mərhələsindən azad olunması ədalətlidir. Çünki onların xeyli təcrübəsi var. Gənc kadrlar isə işin spesifik cəhətlərini bilmirlər. İkinci bir tərəfdən bu, rəqabətli mühitin yaranmasına gətirib çıxaracaq. Sadəcə problem vakant yerlərlə bağlıdır. Dövlət orqanları vakant yerlərlə bağlı müntəzəm məlumat verməli və namizədlərin müsabiqə, müsahibə mərhələlərindən keçmələri tələb edilməlidir".

**Kənan**

## Aqil M. Quliyev 43 kiloqram arıqladı

"Böyük komplekslər yaşayırdım, efirə getməkdən boyun qaçırırdım

**"39-40 yaşıma qədər arıq olmuşam həyatda. Yaşıdlarıma gülmüşəm ki, qarnınız var, şişmisiz, köksüz. Sonra mən də başladım birdən-birə şişməyə. Baxdım ki, 120 kiloyam. Çox əziyyət çəkirdim. Ən böyük şoku və kompleksi əllərimin ayaqlarıma çata bilməyəndə yaşadım və dedim ki, artıq bəsdir".**

Bu sözləri rejissor Aqil M.Quliyev "Ziq-zaq" proqramında qonaq olarkən deyib. Çəkisini itirdikdən sonra görünüşü ilə diqqət çəkən rejissor 4 il müddətində 120 kiloqramdan 77-ə düşdüyünü açıqlayıb: "Azərbaycan xalqı kimi mən də araq-kabab, kabab-araq və sonu 120 kilo ilə nəticələndi. Böyük komplekslər yaşayırdım, efirə



getməkdən boyun qaçırırdım, xəstəyəm və ya nəsə fikirləşirdim ki, getməyim. Şəhərə çıxa bilmirdim, mənimki o idi ki, çatım restorana oturum və deyim, gətirin. Bir var sən uşaq vaxtından toppuş olasan və bu sənə yaraşsın, özünü rahat hiss edəsən. Amma mən özümü çox narahat hiss edirdim. Çox sadə resepti var. Bunu bir dəfə mənə idmançı dedi. Vüqar İslamzadənin "Zabit şərəfi" filminin çəkilişləri vaxtı, mənim kök vaxtlarım idi, o mənə dedi ki, yaman şişmisən, o özü isə arıqlamışdı. Mənə dedi ki, yavaş-yavaş ye. Bunu eşitdim və təbii olaraq tətbiq etmədim. İnsan yeməyi yeyəndən sonra qida mədəsinə 3-7 dəqiqəyə çatır. Çox çeynəmək ona görə vacibdir ki, o birisi gedib çatsın ora. Hər şeyi də yeyirəm, onu olmaz, bunu olmaz yoxdur. Amma az-az və yavaş-yavaş yeyirəm. Hazırda 77 kiloqramam. Çəkim 4 ildə 120 kiloqramdan 77-ə düşdü".

# "İndiyədək 12 uçuş həyata keçirmişik"



*FHN-nin amfibiya təyyarəsinin ekipaj üzvü: "Yanğınla mübarizədə sona qədər vuruşacağıq"*

"Yanğın ocaqlarının söndürülməsində canla-başla iştirak edirik. Bu, bizim borcumuzdur - Türkiyə xalqına, dövlətinə qardaşlıq borcumuz. Necə ki, Türkiyə bizə yardımlarını əsirgəməyib".

APA-nın Türkiyəyə ezam olunan müxbiri xəbər verir ki, bu sözləri jurnalistlərə açıqlamasında Fövqəladə Hallar Nazirliyinin (FHN) "BE-200ÇS" tipli amfibiya təyyarəsinin bort mühəndisi, təlimatçı Cavid Qəhrəmanov deyib.

Onun sözlərinə görə, ərazi çox çətin reylefə malikdir: "Ərazi olaraq Türkiyənin Muğla şəhərində yanğınların söndürülməsi prosesində iştirak edirik. Ərazidə yanğınlar çoxdur. Tüstüyə görə aviasiyanın işləmək imkanları məhduddur. Hava həddindən artıq istidir. Tüstülər aviasiyanın işləməsinə imkan vermir, manelər yaranır. Buna baxmayaraq, biz gün ərzində indiyədək 12 uçuş həyata keçirmişik. Bir azdan yenə uçuşlarımız olacaq".

**C. Qəhrəmanov bildirib ki, məqsəd Azərbaycan xalqını, dövlətini, Prezidentini burada layiqincə təmsil etməkdir:** "Yanğınla mübarizədə sona qədər vuruşacağıq. İstərdik ki, tez bir zamanda yanğın terroru başa çatsın. Ümid edirəm ki, yaxın zamanlarda yanğınların qarşısı alınacaq. Yenə qeyd etmək istəyirəm ki, yanğınların qarşısını almaqda bizə mane olan bir neçə amil var. Bunlardan biri hava şəraitidir. Dağlarda görünmənin sıfır səviyyədə olması bizə çətinliklər yaradır".

# Nə ilkdir, nə son...

*Şiddət görən qadınlar artır*



Bir neçə gün öncə 24 yaşlı Sevinc Məhərrəmova 42 yaşlı əri Füzuli Qarayev tərəfindən amansızcasına qətlə yetirilib. O, F.Qarayev tərəfindən tez-tez zorakılığa məruz qalıb.

Sonuncu dəfə Sevinc ilə əri arasında yenə münaqişə yaranıb. Füzuli arvadının küsüb sığındığı qonşusu Röyal Hüseynovun evində olmasını bilib oraya gələrkən küçədə R.Hüseynovu və yanında fəhlə işləyən Ramil Bəşirovu bıçaqlayıb. Bundan sonra evə daxil olaraq arvadı S.Məhərrəmovaya çoxsaylı bıçaq xəsarətləri yetirərək onu öldürüb.

Bu cümləni yazmağı heç sevmirəm. Amma qeyd etməliyəm: "Nə ilkdir, nə də son". Özünə sahib çıxa bilməyən, psixoloji problemlərinin əsiri olan, manyak xarakterli "kişi"lərin qurbanına çevrilən ilk qadın deyil Sevinc.

Bəlkə bu hadisələrin sonunu gətirə, istər fiziki, istərsə də psixoloji şiddətə məruz qalan qadınların fəryadını eşidə bilərik.

Mehriban Zeynalova: "Hüquq-mühafizə orqanları sosial işçilərlə, psixoloqlarla, sığınacaqlarla işləməlidir"

**Mövzu haqda "Şərq"ə danışan "Təmiz Dünya" İctimai Birliyinin sədri Mehriban Zeynalova deyib ki, bu kimi halların qarşısının alınması məqsədilə görülən tədbirlərdə ciddi istiqamətləndirmə və operativlik olmalıdır.**

"Qadınların sosial hüquqlarının müdafiəsi, sosial paketlər, inteqrasiya proqramları vacibdir. Məsələn, qadın müraciət edib sığınacaqda qalsa, onun inteqrasiyası necə olacaq? Hansı resurslara istiqamətləndirək? Bunlar çox önəmli məsələlərdir və müzakirə olunmalıdır. İkincisi, kişilərlə bağlı işlər gücləndirilməlidir. Məcburi psixoloji reabilitasiyaya yönləndirilməlidir. Müraciət edən şəxsi dərhal mütəxəssislərə göndərmək lazımdır ki, onlar rəy versinlər. Təhlükə olub-olmadığını aydınlaşdırsınlar. Bəzən nələrsə vaxtında aşkarlanmalıdır. Tez-tələsik qərar qəbul etmək də olmaz. Hüquq-mühafizə orqanları sosial işçilərlə, psixoloqlarla, sığınacaqlarla işləməlidir. Ən vacibi qadınların sosial müdafiəsidir. Bu olmayanda o, zorakılıq mühitinə qayıdır. Sadaladıqlarımın bir qismi çalışır. Lakin istiqamətləndirmə, bir-birinə ötürmə və operativlik zəifdir. Bunlar aradan qaldırılmasa, bu kimi hallar olacaq. Təbii ki, düşüncələri bilmək olmur. Ona görə psixoloqlar hazırlanmalıdır. Ola bilsin ki, kişilərdə hansısa travmalar var. Onlar aradan qaldırılmalıdır. Vəziyyət elə də ürəkaçan deyil. Keyfiyyətli xidmət paketləri formalaşdırılmalıdır".

**Samirə Ərəblinski**

## Türkiyədə koronavirusdan 108 nəfər ölüb

**Türkiyədə son sutkada yeni növ koronavirusdan (COVID-19) 108 nəfər həyatını itirib.**

APA-nın yerli bürosunun xəbərinə görə, bu barədə Türkiyənin Səhiyyə Nazirliyi məlumat yayıb. Nazirliyin məlumatında bildirilib ki, Türkiyədə gündəlik statistikaya əsasən, COVID-19 infeksiyası ilə əlaqədar 245 152 nəfər test edilib, onların 24 297-nin koronavirus testi pozitiv nəticə verib, 6636 nəfər sağalıb.

Nazirliyin covid19.saglik.gov.tr saytına istinadla paylaşdığı cədvələ görə, Türkiyədə indiyədək COVID-19-a qarşı birinci, ikinci və üçüncü mərhələ də daxil olmaqla 74 901 234 nəfərə peyvənd tətbiq edilib.

## 4 terrorçu zərərsizləşdirilib



**Türkiyənin cənub-şərq vilayətlərində Daxili İşlər Nazirliyinin həyat keçirdiyi antiterror əməliyyatları davam edir.**

Trend-in məlumatına görə, son sutka ərzində Van vilayətində 3, Mardin vilayətində 1 terrorçu zərərsizləşdirilib.

Terrorçulardan birinin axtarışda olan PKK mənsubu Süleyman Öztürk olduğu bildirilib.

Bölgədə "Ərən" antiterror əməliyyatları davam etdirilir.

# "Bu qatarın dalınca baxma"



Bəzi mahnıların ərsəyə gəlməsi, yazıya və nota alınması da bir tarixdir. Hələ də yaranmasında əsl sənətkarların imzası varsa, o əsərin hekayəsi daha gözəl olur. "Bu qatarın dalınca baxma" mahnısı da həmin bəstələrdən biridir.

## *Flora Kərimova mahnının yaranma hekayəsini danışıb*

**"Şərq" xəbər verir ki, Xalq artisti Flora Kərimova "Özəl" proqramında qonaq olarkən unudulmaz ifasının tarixi haqda danışıb:**

"Mahnı mənim xahişimlə yarandı. Bəstəkar Mobil Babayevdən rica etdim. Sözləri-ni də Ramiz Rövşən yazıb.

Uzun müddət sözlərinin Vaqif Səmədoğluna məxsus olduğunu zənn edirdim. Ramiz bəy də yanımda oturub və dinmir. Mən də Vaqif müəllimin adını çəkib tərifləyirəm. Düzü, elə insanlar var ki, onlar haqda tərif sözü işlətmək günahdır. Çünki onun varlığını, həqiqəti və səcdəmi dilə gətirirdim. Ramiz müəllim bir dəfə də demədi ki, ay bacı, sözləri mənimdir axı. Həqiqətən biləndən sonra nə günə düşdüm.

Ondan dəfələrlə üzr istədim. Qayıtdı ki, nə danışırsınız, V.Səmədoğlu mənim sevimli şairimdir. Baxın, bir klassik, digər klassik üçün "mənim sevimli şairimdir" deyir. Bu məqamda özünün də klassik olduğunu yaddan çıxarır. Mən səsimi, mahnını tanımadım. Qızım nasaz idi, ağlaya-ağlaya başını sığallayırdım. Qəfildən eşitdim ki, bir səs fəryad edir. İfam xoşuma gəlmədi. Televiziyadan xahiş etdim ki, mahnını yayımlamasınlar. Beş il bu mahnıya qadağa qoydum.

Tariyel Vəliyev məşhur trilogiyanı yazanda ifa etdiyim bütün mahnıların səs yazısını götürdü. Məni "yaşatdı"".

**Samirə**

# "Rayona gedəndə valideynlərimi görmürəm"

## *Niyam uşaqlığından danışarkən göz yaşlarına hakim ola bilməyib*

"Onun sirri" proqramı müğənni Niyam Salaminin doğulub boya-başa çatdığı evdə olub.

"Şərq"in məlumatına görə, N.Salami uşaqlığından danışarkən göz yaşlarına hakim ola bilməyib:

"Həmişə deyirəm kövrəlməyəcəm, amma alınmır. Təəssüf ki, rayona, torpağıma gedəndə valideynlərimi görə bilmirəm. Düzdür, başım uca gedirəm. Maşından düşəndə, camaata salam verəndə, çəkinmirəm, utanmıram.

Bu, böyük şərəfdir. Kənddə müğənni olduğum üçün məni sıxıblar, əzilmişəm. Camaatı ağlatmaq-güldürmək çox çətindir. Hardasa deyirdilər ki, müğənni olsan, səni qəbul etməyəcəyik. Məndən maddi dəstək də gözləmirlər".



İfaçı söyləyib ki, vaxtında klublarda çox pul xərcləyib:

"Klubların "xalq artisti" olmuşam. Gənclik illərimdə klubsever idim".

**Samirə**

# İstifadəçiyə hiddətləndi

"Nüşabənin yanında aslan kimi əri var"



**Müğənni Nüşabə Ələsgərli aparıcı Xoşqədəm Hidayətqızı və onun həyat yoldaşı türkiyəli ulduz Doğuşla fotosunu paylaşıb.**

"Şərq" xəbər verir ki, sənətçinin paylaşımı izləyiciləri tərəfindən maraqla qarşılanıb.

Bir sosial şəbəkə istifadəçisi "Nüşabə xanıma da türkiyəli yeznə tapılsa, əla olar. İnsan bu qədər təkamül edib" rəyini yazıb.

**N.Ələsgərli ona hiddətlə cavab verib:**

"Nüşabənin yanında aslan kimi əri var. Cənubi azərbaycanlıdır, təbrizlidir".

# "İndiki uşaqlar sözə baxmırlar"

Könül Kərimova oğlunu evləndirmək istəyir



**Müğənni Könül Kərimova "ATV"yə açıqlamasında oğlu Rəşaddan danışıb.**

"Şərq" xəbər verir ki, o, oğlunu evləndirmək istədiyini söyləyib:

"İndiki uşaqlar sözə baxmırlar. Gözaltı etməyə qalsa, qəşəng qızlarımız çoxdur. Gəncləri düzgün yönləndirmək lazımdır. Valideyn öyüd-nəsihəti ilə qurulan ailə fərqli olur. Mən də, bacı-qardaşım da ailə tövsiyəsi ilə evlənmişik. Mütləq "söylədiyim olmalıdır" demirəm. Amma gənclərin görmədikləri məqamları böyüklər bilirlər. Rəşad demiş, ikimiz də fikrimizi yarı-yarıya bildirməliyik. Həmişə Cabbar Musayevin övladlarını misal çəkirəm. Cabbarın üç oğlu var. Canlı şahidəm ki, üçü də valideynlərinin məsləhəti ilə evləniblər. Qız köçürmək daha çətindir. İndiki cavanlar odlualovludurlar. Evlənəndə uzun bir yola çıxırlar. Ailədən öncə dost münasibətləri olsun istərdim".

**Samirə**

# Açıq hərracların keçirilməsinə dair elan

Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinin Ləgvetmə komissiyasının sifarişi ilə ləğvetmədə olan şirkətə məxsus rekonstruksiya işlərindən sonra birləşdirilmiş 4 (dörd) mənzil Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 20 (ümumi sahəsi 56.6 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 49 (ümumi sahəsi 46.5 m2), Bakı şəhəri, Nəsimi rayonu, Mirzə Ağa Əliyev küçəsi , ev 251, mənzil 50 (ümumi sahəsi 52.7 m2) və Bakı şəhəri, Nəsimi rayonu, Şəmsi Bədəlbəyli küçəsi , ev 96, mənzil 65 (ümumi sahəsi 114.7 m2) açıq hərraca çıxarılmışdır. Hərrac açıq auksion formasında sifarişçinin müəyyənləşdirdiyi qaydalara uyğun keçirilməklə 24 avqust 2021-ci il tarixə, saat 11 00-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir.

Rekonstruksiya işlərindən sonra birləşdirilmiş 4 (dörd) mənzilin ümumilikdə ilkin satış qiyməti 1.750.000 (bir milyon yeddi yüz əlli min) manat məbləğində müəyyənləşdirilmişdir.

Hərracda iştirak üçün ilkin satış qiymətinin 1 %-i, yəni 17.500 (on yeddi min beş yüz) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 2 (iki) iş günü qalanadək hərrac sifarişçisinin aşağıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Adı: Ləğv prosesində olan ASC "Standard Insurance" Sığorta Şirkəti
Hesab №: AZ52PAHA35090AZNHC0190000581
VÖEN: 1300115641
Bank Adı: Paşa Bank ASC
Kodu: 505141
VÖEN: 1700767721
Müxbir hesab: AZ82NABZ01350100000000071944
S.W.I.F.T. PAHAAZ22

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin ən az 1 %-i qədər olmalıdır.

(Əlavə olaraq "Qeyd"ə bax).

---------------------------------------------------------------------------

Ləğv prosesində olan "Standard Insurance" Sığorta Şirkətinin Ləgvetmə komissiyasının sifarişi ilə ləğvetmədə olan şirkətə məxsus aşağıdakı cədvəldə göstərilən rəsm əsərləri açıq hərraca çıxarılmışdır.

| S/S | Barcode | Hərracın predmeti | Rəsm əsərinin müəllifinin adı və soyadı | Ölçüsü | Ilkin satış dəyəri | Behin məbləği |
|---|---|---|---|---|---|---|
| 1 | 1800 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-1 | 1500 | 75 |
| 2 | 1801 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-2 | 1500 | 75 |
| 3 | 1802 | Şəkil "Teiptix Dəniz mənzərəsi" | Müseib Əmirov | 65x196-1-3 | 1500 | 75 |
| 6 | 1805 | Şəkil "Köhnə Bakı" | Şübhan Məmmədov | 80x140 | 1500 | 75 |
| 18 | 1817 | Şəkil "Mənim Bakı" | Sübhan Məmmədov | 60x100.5 | 1500 | 75 |

Hərrac açıq auksion formasında keçirilməklə 24 avqust 2021-ci il tarixə, saat 11 00-a (növbəlik qaydasında) təyin edilmişdir.

Hərrac Bakı şəhəri, Yasamal rayonu M.Rahim 4A ünvanında keçiriləcəkdir.

Hərracda iştirak üçün ilkin satış qiymətinin hər bir şəkil üzrə 5 %-i, yəni hər bir rəsm əsəri üzrə 75 (yetmiş beş) manat məbləğində beh ödənilməlidir. Beh məbləği hərracın təyin edildiyi tarixə 2 (iki) iş günü qalanadək hərrac sifarişçisinin yuxarıda göstərilən hesablaşma hesabına ödənilməlidir.

Hərrac addımı - əmlakın ilkin satış qiymətinin ən azı 1 %-i qədər olmalıdır.

(Əlavə olaraq "Qeyd"ə bax).

**QEYD:** Yuxarıda göstərilən hərraclarda iştirak etmək üçün aşağıdakı sənədlər hərracın keçirilməsinə ən geci 1 (bir) iş günü qalanadək hərracın təşkilatçısına təqdim olunmalıdır.

**1)** Hərracda iştirak etmək üçün şəxs və ya onun səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış (hüquqi şəxs tərəfindən əlavə olaraq möhürlə təsdiqlənmiş) ərizə (hərracın təşkilatçısı tərəfindən müəyyən edilən nümunəyə müvafiq);

**2)** Elanda göstərilmiş hərrac predmetinə dair behin hərracın sifarişçisinin hesabına ödənildiyini təsdiq edən sənəd;

**3)** Fiziki şəxslər tərəfindən şəxsiyyətini təsdiq edən sənədin surəti;

**4)** Hüquqi şəxslər və (və ya) fərdi sahibkarlar tərəfindən vergi ödəyicisinin uçota alınması haqqında şəhadətnamənin surəti;

**5)** Hərracın iştirakçılarına onların hərracda iştirakı statusunu əldə etməsini müəyyənləşdirən bilet verilir;

**6)** Şəxs hərracda iştirak etmək üçün ərizənin qəbulu başa çatanadək təşkilatçıya yazılı formada müraciət etməklə, öz ərizəsini geri götürə bilər;

**7)** Ərizənin geri götürülməsi hərracın şərtlərinə uyğun olduqda, ödənilmiş beh məbləği geri qaytarılır;

**8)** Hərracda iştirak edən, lakin onu udmayan şəxslərin behi 2 (iki) bank günü müddətində geri qaytarılır;

**9)** Hərracda iştirak etmək hüququ əldə etmiş şəxslərə "sifarişçi" və (ya) "təşkilatçı" tərəfindən satışa çıxarılan əmlakla tanış olmaq imkanı yaradılır;

Hərracın qalibi hərracın yekunları barədə alqı-satqı müqaviləsinin bağlandığı vaxt ödəməli olduğu pul vəsaitini "sifarişçi" nin hesablaşma hesabına köçürməlidir.

***Hərracın təşkilatçısı***
***"Əmlak Hərrac Mərkəzi" MMC***

*Ünvan: Bakı şəhəri, Yasamal ray., Məmməd Rahim 4a.*
*Tel: (+99412) 539-47-22 ; (+99455) 745-25-56*
*e-mail: info@e-herrac.com*
*rəsmi internet saytı: e-herrac.com*
*Sifarişçinin əlaqə telefonları: 050-253-33-05 ; 055-213-51-35*

## Qəhrəman...

### Ana və atasını qurtardı, bədəninin sağ tərəfi yandı

(Əvvəli səh: 16-da)



**Önümdəki alov az qala 20 metri qədər qalxmışdı, arxamdakını isə söyləyə bilmirəm. Bir az düşündükdən sonra alovun içinə doğru girib qaçmağa başladım".**

Yanğından qaçarkən bədəninin sol tərəfini qoruduğunu, sağ tərəfində isə yanıqlar əmələ gəldiyini qeyd edən Okudan, "Anamla atamı qorudum, amma özüm alovların içərisində qaldım. Qaçmağa çalışarkən yandım. Üzümdə, qolumda və ayağımda yanıqlar var. O anlar izah etmək zordur. Bəlkə mənim bədənimdə izlər qalacaq, amma anamla atama bir şey olsaydı ürəyimdəki izlər sağalmazdı. Bu yaralar isə bir gün əlbət bitəcək. Bu an böyük bir sevinc yaşayıram. Allah belə bir şeyi kimsəyə göstərməsin. Mən burada doğuldum və böyüdüm. Bütün xatirələrim itdi, daş yığınından başqa heç bir şey qalmadı" deyə sözlərini bitirib.

**Turan**

## Burcu yanğın bölgəsinə göndərilən qutuları daşıdı



**Məşhur aparıcı Burcu Esmersoy Türkiyədə davam edən yanğınlardan sonra fəlakət qurbanlarına yardım edib.**

Aparıcı kompaniya başladaraq həmin ərazilərdə ehtiyac duyulan ləvazimatları toplayıb. O, əşyaların qablaşdırılması və paylanması prosesində də yaxından iştirak edib.

Qutuları kürəyində daşıyarkən görüntülənən Burcunun bu addımı müsbət qarşılanıb.

## "Ərimin başqa qadınla öpüşdüyünü görsəm..."



**İngiltərənin kral ailəsinin kürəkəni Cek Bruksbankın yaxtada görüntüləndiyi qadınlardan biri italiyalı model Erika Pelosinidir.**

Axşam.az xəbər verir ki, model paparatsilərin çəkdiyi fotolara görə peşman olduğunu bildirib. "Bu fotoşəkillər insanları uyğunsuz nəticə çıxartmağa vadar etdi. İnsanların belə düşünmələri məni çox incidir. Əgər şahzadə Yevgeniyanı və Ceki utandırdımsa, üzr istəyirəm. Üstümün elə olması uyğunsuz idi. Şəkillərin çəkildiyini bilsəydim daha düzgün nəsə geyinərdim.

Əgər mən beş ay əvvəl doğum etsəydim və ərimin günəşin dadını çıxardığını görsəydim, onun adına sevinərdim. Amma başqa qadınla öpüşdüyünü görsəm heç də yaxşı olmazdı" deyə, model üzr istəyib. Pelsoni fotolar mediada yayımlandıqdan sonra Cekə narahat olduğunu deyərkən onunla həyat yoldaşı arasında güclü bağ olduğunu hiss etdiyini açıqlayıb. O, mənə "Yevgeniya heç bir şey olmadığını bilir" dedi. Model açıqlamasında yaxtada olarkən, yeni ata olan Cekin, körpəsi üçün darıxdığını tez-tez dilə gətirdiyini vurğulayıb.

## Bu şirkət peyvənd vurduran işçilərinə 1700 manat verəcək



**Dünyanın ən böyük investisiya şirkətlərindən olan "Vanguard" işçilərinə 1000 dollar verəcək.**

Türkiyə mətbuatı bildirir ki, şirkət peyvənd olunan işçilərinə 1000 ABŞ dolları ödəyəcək.

Şirkətdən bildirilib ki, məqsəd koronavirusun yayılmasının qarşısını almaqdır.

## Məhdudlaşdırma bitdi

### "Həkim balıqlar" işə başladı



(Əvvəli səh: 16-da)

**Sağlamlıq mərkəzinin sahibi Fuad Ünsal durumlarından məmnun olduqlarını bildirib:**

"Həqiqətən keçmiş günlərimiz üçün çox darıxdıq və 2 ildir fəaliyyətsiz idik. Çox şükür, keçmiş günlərimizə qovuşduq. Hazırda mərkəzimiz tamamilə dolub. Qürbətçilərin də turizmə çox böyük qatqısı var və çox gözəl bir turizm mövsümü keçirirk. Almaniyadan "Kaplıca"ya gələn qürbətçi İsmayıl Özçelik (52), "Burada ikinci günümdür və hər şey yaxşıdır. Müalicənin təsirini də yaxın günlərdə görəcəyik. Eqzema və sədəf kimi narahatlıqlarım var. Balıqlar gəlib dərinin üzərindəki yaraları, parçaları götürür. Heç belə yer görməmişdim və buranı internetdə tapdım. Bir az araşdırdım və bura tətilə gəldim" deyə danışır. Qazaxıstandan gələn Nursultan Beisenin də üzü gülür: "Müalicə üçün variantları axtararkən internetdən buranı tapdım. Sədəf xəstəliyim var. Yeni gəlmişəm, amma müalicə çox yaxşı gedir. Buradan olduqca məmnunam".

**Turan**

**Elan**

Şuşada "N" saylı hərbi hissədə xidmət edən leytenant, batareya komandiri Mənsimli Elcan Mənsim oğluna məxsus "Zabitin şəxsi vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

Bakı Avrasiya Universitetinin Mətbuat Xidmətinin rəhbəri Şəfayət Avılbəyli Misirxan Çopurova atası

**Xanlar kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sosial Tədqiqatlar Mərkəzinin Mətbuat Xidmətinin rəhbəri Əziz Əlibəyli Misirxan Çopurova atası

**Xanlar kişinin**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət etsin!**

## Azercell-in rəqəmsal xidmətləri indi daha çox istifadəçinin rahatlığını təmin edir

Ölkənin müştəri yönümlü lider şirkəti "Azercell Telekom" MMC rəqəmsal həllərdən istifadəni daha asan və rahat etmək məqsədilə "Kabinetim", "ABB Mobile", "Umico" platformaları üzərindən xidmətlərin çeşidini genişləndirir.




İndi ABB Mobile tətbiqinə Azercell-in NNTV, Bookmate, BluTv, "IVI" rəqəmsal həlləriylə yanaşı SberZvuk xidmətinə abunəlik də əlavə olunub. SberZvukla milyonlarla istifadəçinin istənilən əhvala, şəraitə və məkana uyğun musiqini tapmaq, dünya hitlərindən tutmuş klassikaya qədər müxtəlif növ musiqini dinləmək mümkündür. 50 milyon mahnı, podkast, fərdi tövsiyə və musiqini özündə cəmləşdirən rəqəmsal məhsulun ağıllı alqoritmləri seçiminizi sizin üçün avtomatik olaraq fərdiləşdirir.

Yayın əvvəlində SberZvuk xidmətinə Hi-Fi musiqisi üçün dəstəyin əlavə olunması nəticəsində indi milyonlarla mahnı istifadəçilər üçün itkisiz (lossless) - sıxlaşdırma və təhrif olmadan təqdim olunur. Bu yeniliklər əlavə ödəniş tələb etmədən standart abunə paketinə daxildir. Qeyd edək ki, Hi-Fi keyfiyyəti musiqini yaradıcıları tərəfindən ilk düşünüldüyü və yazıldığı şəkildə dinləməyə imkan verir. Bu funksiya iOS və Android əməliyyat sistemini dəstəkləyən bütün mobil cihazlarda istifadə oluna bilər. Bunun üçün SberZvuk tətbiqində Hi-Fi işarəsi olan istənilən kompozisiyanı seçmək, və ya pleyerdə, istifadəçi profilində Hi-Fi keyfiyyətinə keçid etmək kifayətdir. Eyni zamanda trekləri keyfiyyətini itirmədən onlayn şəkildə dinləmək və ya mobil cihazın yaddaşına yükləmək də mümkündür.

Həmçinin, ABB Mobile-də təqdim olunan BluTV mobil kinoteatrına Discovery+ strimінq xidməti əlavə edilib. Yeni proqram sayəsində bu kanalın sənədli və əyləncəli kitabxanasına üzv olmaq mümkündür. Bu paketdə Discovery Channel, TLC, Animal Planet, ID, Discovery Science, Food Network, Travel Channel, həmçinin Eurosport kimi populyar kanalların təqdim etdiyi ən məşhur şoular, seriallar, idmançılar haqqında proqramlar təqdim olunur.

*Xatırladaq ki, bu və digər Azercell rəqəmsal məhsulları artıq "Umico" platformasına da əlavə olunub və xidmətlərə qoşulma qaydası çox sadədir: "Umico" tətbiqini "App Store" və ya "Play Store"dan yüklədikdən sonra "Umico"da "Bonuslar" səhifəsinə keçid edib "Azercell - Keşbekli xidmətlər" bölümü seçilməlidir.*

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks:** AZ1073

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 404



# Mafiya atası yenidən qandallandı

2 il əvvəl səhvən sərbəst buraxılmışdı

**İtaliyanın ən böyük mafiya təşkilatlarından "Ndrangheta"nın üzvü olan mafiya atası Domeniko Paviglianiti 2019-cu ildə səhvən sərbəst buraxılıb.**

O, aradan çıxıb qaçdığı İspaniyada təkrar tutularaq həbs olunub.

Cənubdakı Kalabria bölgəsində 1980 və 1990-çı illərdə "xaç atası" olaraq tanınan Paviglianiti, çox sayda cinayət, narkotik qaçaqmalçılığı və bir sıra cinayətlərdən ömürlük həbsə məhkum edilmişdi. Bu cəza daha sonra 30 il həbsə endirilib. Paviglianiti 2019-cu ildə cəzasının səhv hesablanması nəticəsində sərbəst qalmışdı.

2019-cu ilin oktyabrında həbsxanadan çıxan mafiya atası İspaniyaya getmiş, həbs cəzasının səhv hesablandığının aydınlaşmasından sonra 2021-ci ilin yanvarında təkrar haqqında həbs qərarı çıxarılmışdı. 60 yaşlı Domenico Paviglianiti ötən çərşənbə axşamı İtaliya və İspaniya təhlükəsizlik güclərinin birgə əməkdaşlığı nəticəsində Madriddə təkrar həbs olunub. Paviglianitinin İtaliyaya qaytarılması və 11 il 8 ay daha həbs çəkməsi gözlənilir. İtaliya mətbuatına görə, Paviglianiti klanı hələ də bölgədə fəaliyyətini davam etdirir.

**Turan**

# Məhdudlaşdırma bitdi

"Həkim balıqlar" işə başladı





**Bura sədəf və eqzema kimi xəstəlikləri olanlar üçün çox möhtəşəm bir yerdir.**

Sivasın Yumaq məhəlləsində sədəf xəstəliyinin təbii müalicə mərkəzi kimi tanınan "Balıqlı Kablıca"da pandemiya məhdudlaşdırmalarının qaldırılmasıyla ziyarətçi sıxlığı yaşanır. Dəri xəstəlikləri olan insanların rəğbətini qazanan bu yerləri xaricdən gələn qürbətçilər də ziyarət edir.

**Turan**

*(Davamı səh: 15-də)*

# "Məni yedirdib, özü ac yatıb"

Ronaldo hamını kövrəltdi



**Portuqaliyalı ulduz Kriştian Ronaldonun anası ilə bağlı dedikləri futbol camiəsini kövrəldib.**

Fanat.az xəbər verir ki, müsahibə zamanı ona "Niyə hələ də ananla yaşayırsan?" sualı ünvanlanıb. "Yuventus"un futbolçusu isə cavabında bildirib ki, anası onu böyütmək üçün bir çox şeyi qurban verib: "Məni yedirdib, özü isə ac yatıb. Pulumuz yox idi. Mənim ilk butslarımı almaq üçün həftənin 7 günü gecə-gündüz xadimə işləyib. Bilirdi ki, mənim futbol oynamağım üçün onlar vacibdir. Bəzən iki işdə birdən işləyib ki, məşqlərə gedərkən yol pulum olsun. Bütün uğurlarımı ona həsr edirəm. Sağ ikən həmişə yanımda olacaq. O mənim sığınacağım və ən böyük hədiyyəmdir".



# Ananın çarəsiz anı

*Körpəsini sinəsinə basıb qurtarılmasını gözlədi*





**İstanbulun Güngören qəsəbəsində 4 mərtəbəli binada baş verən yanğında 5 nəfər tüstüdən təsirlənərək xəstəxanaya çatdırılıb. Hadisə zamanı bir ana tüstüyə görə balkonda uşağıyla qorxu içində qurtarılmasını gözlədi.**

Hadisə elektrik xəttində baş verən qısa qapanma ilə başlayıb. Yanğın zamanı hər yeri - binanı və nərdivan çıxışı tüstü bürüyüb.

Bina sakinləri qorxudan evin balkonlarına çıxıblar. Bir qadın uşağını qucağına alaraq qorxu içində balkonda qurtarılmasını gözləyib. Hadisə yerinə gələn xilasetmə qrupları, nərdivanlı texnikanın köməyi ilə qapalı qalanları çıxarıb, yanğına müdaxilə edib.

Tüstüdən təsirlənən ikisi uşaq olmaqla 5 nəfər təcili yardımla xəstəxanaya aparılıb. Xilasetmə əməkdaşlarının körpə uşaqları götürüb təcili yardıma qaçdığı anlar da kamerada əks olunub. Yanğın xilasetmə qrupları tərəfindən söndürülüb.

Məhəllə sakini Fərhad Kara, "Elektrik qapanması ilə bağlı yanğın çıxdı. Üst mərtəbələrdə qapalı qalanlar oldu. Suriyalı vətəndaşın uşağı ürək xəstəsi idi, onu qurtardılar" deyə danışıb.

**Turan**

# Qəhrəman...

Ana və atasını qurtardı, bədəninin sağ tərəfi yandı





**Manavqat qəsəbəsində məskunlaşan Fərhad Okudan (37), yanğın zamanı anası Ümmühan və atası Mustafa Kamal Okudanı alovların içinə girərək qurtarıb.**

Oteldə çalışdığını ifadə edən Fərhad Okudan hadisəni belə danışıb: "Telefonla anamı axtardım, mənə kəndin üst tərəfində yanğın olduğunu söylədi, "Bizi qurtarın" dedi. Dərhal motosikletimlə məhəlləyə gəldim. Alovlar məhəlləni bürüməyə başlamışdı. Bizim evin qarşısında da zeytun ağacı vardı, bir anda alovlar ona da sıçradı. Külək də çox şiddətli əsirdi. Dərhal evə girib anamla atamı çıxardaraq, böyük qardaşımın avtomobilinə mindirdim. O zaman alovlar evin qarşısında yüksəlməyə başladı. Qaçmağa çalışırdım, amma evin ön qismində də alovlar yüksəlirdi. Qapının qarşısındakı traktora mindim və 30 saniyəyə qədər gözlədim. Alovlar küreyimə doğru vururdu. "Ya iki alov arasında qalacağam, ya da atəşin içərisinə girəcəyəm" dedim.

*(Davamı səh: 15-də)*

# Dəyəri 12 milyon dollardır

Cey Lonun nişan üzüyü yenidən gündəmə gəlib



**Hollivud ulduzu Ben Afflektlə sevgilisi müğənni Cennifer Lopezin barışmasının ardından keçmiş fotoları və hədiyyələri yenidən gündəmə gəlib.**

Afflektin 2002-ci ildə Lopezə evlənmək təklif edərkən taxdığı üzüyün qiymətinin daha baha olduğu ortaya çıxıb. 6.1 əyyarlıq çəhrayı qaşlı "Harry Winston" nişan üzüyünün dəyəri 12 milyon dollardır (təxminən 20 milyon manat). Lopezin hələ də həmin üzüyü özündə saxladığı bildirilib.